

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 fevral 2026-cı il, cümə axşamı № 037 (7104) Qiymәti 60 qәpik


## Prezident və birinci xanım Xocavənddə...




Bax səh. 2

# Hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq!







Bax səh. 3

# Xocalı faciəsi - soyqırımı siyasətinin qanlı səhifəsi

## Xocalı soyqırımı: siyasi, hüquqi və geopolitik məsələlər

Bax səh. 3

## 10-cu görüş

Bax səh. 4

## Müasir şəraitdə Azərbaycan dilinin inkişaf konsepsiyası

Bax səh. 5



Bax səh. 4

## YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib

## Nəsimi rayonunda Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Xocalı sakinləri ilə görüş keçirilib

Bax səh. 4

## Gömrükdə yeni borc ödənişi qaydası

Bax səh. 5

## "Könüllülər koalisiyası" Kiyevdə toplandı

Bax səh. 7

## Pxenyanın yeni strategiyası



Bax səh. 6

## Diplomatik təşəbbüslər artsa da, döyüşlər səngimir



Bax səh. 7

# Prezident Lənkəranda...

## İlham Əliyev Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib




Fevralın 25-də Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına mərkəzdə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, bu mərkəzin təməli 1969-cu ildə Lənkəran Texniki Peşə Məktəbi kimi qoyulub. 2018-ci ildə Lerik Peşə Məktəbi və Lənkəran Peşə Liseyi birləşdirilərək onların bazasında Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Mərkəz 2024-cü ildən etibarən Publik Hüquqi Şəxs kimi fəaliyyət göstərir.

Müasir infrastrukturla təmin olunan mərkəzdə tədris, idman, yataqxana, kulinariya təlim korpusları, təlim-qonaq evi, əkinçilik və emalatxana laboratoriyaları, istixana, həmçinin avtotəmir və CNC (dəzgahların kompüterləşdirilmiş idarəetmə sistemi) emalatxanaları yaradılıb. Burada, eyni zamanda, informatika kabinetləri, müasir sinif otaqları, hərbi hazırlıq kabineti, kitabxana, 300 nəfərlik akt zalı və yeməkxana fəaliyyət göstərir. Ərazidə 53 nəfərlik yataqxana binası inşa edilib və yenidənqurmadan sonra korpusların sayı 7-yə çatdırılıb.

2025/2026-cı tədris ilində mərkəzdə 42 ixtisas üzrə 55 qrupda 962 tələbə təhsil alır. Onların 385-i qadındır. Müəssisədə turizm, kənd təsərrüfatı, sənaye, xidmət, İT texnologiyaları və alternativ enerji istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir.

Mərkəzdə yeni maddi-texniki baza formalaşdırılandan sonra bir çox müasir ixtisaslar, o cümlədən elektrik və hibrid avtomobillərinin texniki qulluğu və təmiri üzrə texnik, kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, proqramla idarə edilən sənaye avadanlıqlarının texniki istismarı, kibertəhlükəsizlik, kompüter sistemlərində proqramlaşdırma, binaların tikintisi və istismarı, elektrik xətlərinin, günəş panellərinin quraşdırılması və təmiri üzrə mütəxəssis və texnik ixtisasları tədris olunur.



Burada tələbələrə ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsili pillələri üzrə biliklər verilir. Hazırda mərkəzdə 138 nəfər çalışır.

Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi kadr hazırlığı istiqamətində dövlət və özəl sektoru təmsil edən 30-a yaxın müəssisə ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlığa özəl sektorla birgə kadr hazırlığı, mütəxəssislərin tədrisə cəlb olunması, istehsalat təlimləri, ustad dərsləri, həmçinin sosial və innovativ layihələrin icrası daxildir.

# Prezident və birinci xanım Xocavənddə...

## Xocavənd kəndində görülmüş işlərlə tanışlıq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd rayonunun Xocavənd kəndində görülmüş işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verdi.

Bildirildi ki, Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxil olan bu kənd 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Burada ümumilikdə 278 fərdi ev var. Onlardan 128-i yararsız, 150-si isə qismən yararlıdır. Qismən yararlı evlərin 20-si artıq təmir olunub, bu il daha 130 evdə təmir işləri aparılacaq.

Bu ilin fevralında Xocavənd kəndinə 20 ailə - 94 nəfər qayıdıb. Cari ilin mart-dekabr aylarında kəndə daha 130 ailə - 533 nəfərin qayıtması planlaşdırılır.

Ötən müddət ərzində kənddə bir sıra sosialyönümlü işlər görülüb. Belə ki, 5 kilometr uzunluğunda daşıyıcı qaz xətti çəkilib, 1500 metr uzunluğunda mövcud xətt bərpa edilib. Bundan başqa, 2100 metr uzunluğunda 0,4 kV-luq mövcud xətlər və 2 transformator məntəqəsi bərpa olunub.

Kənddaxili yollar asfaltlanıb, piyada yolları çəkilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

Görülmüş işlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva kəndə köçmüş sakin Rizvan İbrahimovun evində oldular və söhbət etdilər.

## Xocavənd şəhərində görülmüş işlərlə tanışlıq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhərində görülmüş işlərlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma şəhərdə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edilib. Şəhər 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub. Elə həmin il oktyabrın 15-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Xocavənd şəhərində Dövlət Bayrağımızı ucaldıb.

Xocavənd rayonunun ərazisi 1,51 min kvadratkilometrdir. Əhalisinin sayı isə 12 min 500 nəfərdir. Rayonun ərazi vahidinə 1 şəhər, 2 qəsəbə və 80 kənd daxildir.

Prezident İlham Əliyevə Xocavənd şəhərində əsaslı təmirdən sonra istifadəyə verilmiş fərdi evlər barədə məlumat verildi.

Xocavənddə 980 fərdi ev mövcuddur ki, onlardan da 133-ü yararsız, 847-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 55-i artıq istismara hazırdır. Bu il ərzində daha 792 ev təmir ediləcək.

Xatırladaq ki, bir neçə gün əvvəl Xocavənd şəhərinə 50 ailə - 194 nəfər qayıdıb. Ötən ilin sentyabrından indiyədək isə Xocavəndin 5 yaşayış məntəqəsinə - Xocavənd şəhərinə 50 ailə (194 nəfər), Qırmızı Bazar qəsəbəsinə 142 ailə (604 nəfər), Sos kəndinə 85 ailə (360 nəfər), Hadrut qəsəbəsinə 58 ailə (233 nəfər), Xocavənd kəndinə isə 20 ailə (94 nəfər) olmaqla, ümumilikdə 1485 nəfər - 355 ailə qayıdıb.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocavənd şəhərinə köçmüş İlqar Həsənovun evində oldular və söhbət etdilər.

# Hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq!

## Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüş...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva fevralın 25-də Xocavənd şəhərində görülmüş işlərlə tanış olublar.











AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, birinci xanım və qızları Xocavənd şəhər və Xocavənd kənd sakinləri ilə görüşüb söhbət etdilər.

Uzun illər əzab-əziyyət içində yaşadıqlarını xatırladan Prezident İlham Əliyev deyib: Köçkün həyatı ağır həyatdır, həm mənəvi əzablar, həm fiziki çətinliklər, öz doğma torpağını tərk edib başqa yerə, hətta Azərbaycanın içində olsa belə getmək və əzab-əziyyət içində yaşamaq böyük sınaqdır. Siz bu sınaqdan şərəflə çıxmısınız. Əminəm ki, bütün Azərbaycan xalqı, siz də hər zaman inanırdınız ki, bu gün gələcək və bu torpaqları biz azad edəcəyik, ədaləti bərpa edəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Bildiyiniz kimi, vaxtilə işğal edilmiş torpaqların böyük hissəsi beş il bundan əvvəl Vətən müharibəsi zamanı azad olunsa da, Xocavənd hələ də işğal altında qalmışdı və xocavəndlilər də hesab edirdilər ki, nə vaxtsa vəziyyət dəyişəcək. Əminəm, cəmiyyətdə inam var idi ki, bir qarış torpaq da düşmənin tapdağı altında qalmayacaq və biz buna da nail olduq. Artıq iki ildən çoxdur ki, bütün əraziyə - Azərbaycan dövlətinin suveren ərazisinə biz nəzarət edirik. Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir. Son 80 il ərzində Azərbaycan qədər belə tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır.




İndi isə quruculuq vaxtıdır və burada artıq dövlət sizin üçün şərait yaradıb. Evlərin bəziləri bərpa edilib, yenidən qurulub. Bu proses davam etdiriləcək. On minlərlə Azərbaycan vətəndaşı artıq azad edilmiş torpaqlarda yaşayır və onlardan təqribən 30 minə yaxını keçmiş köçkünlərdir. Bildiyiniz kimi, biz əsas bu son 4-5 il ərzində infrastruktur layihələrinə vəsait ayırırdıq. Çünki yaşamaq üçün əsas ilkin şərtlər olmalıdır - elektrik, qaz, su, yollar, körpülər, tunellər. İndi isə daha çox yaşayış evlərinin tikintisi, bərpası məsələlərinə vəsait ayrılacaq. Ona görə "Böyük Qayıdış" prosesi daha sürətlə gedəcək.

Burada iş yerləri də yaradılır, həm dövlət xətti ilə, həm ictimai təşkilatların xətti ilə və əlbəttə ki, özəl sektor. Burada yaşayan insanların əksəriyyəti vaxtilə kənd təsərrüfatı ilə məşğul idi. Siz yaxşı bilirsiniz ki, bu bölgənin çox gözəl təbiəti var, münbit torpağı var, suyu var, bulaqları var, hər şey var. Əsas odur ki, insanlar artıq burada rahat yaşasınlar və tam əmin olsunlar ki, bir daha xalqımızın başına belə fəlakətlər gəlməyəcək.

Bunun üçün də hər zaman güclü olmalıyıq, ayıq olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq. Necə ki, inamla baxırıq və yaşayırıq.

Sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzu edirəm.

X X X

Sonra xatirə şəkilləri çəkdirildi.

# Xocalı faciəsi - soyqırımı siyasətinin qanlı səhifəsi





Tarixdən ermənilərin azərbaycanlılara qarşı məqsədli şəkildə törətdikləri mənfur niyyətli əməllərə aid çoxsaylı misallar sadalamaq mümkündür. Təkcə XX yüzillikdə qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində soydaşlarımız düz dörd dəfə amansız deportasiyalarla üzləşiblər və öz dədə-baba yurdlarını necəgəldi şəkildə tərk etmək məcburiyyətində qalıblar.

Xalqımız ermənilərin havadarlarının dəstəyi ilə törətdikləri daha bir faciənin acısını 1992-ci il fevralın 25-dən 26-na keçən gecədə yaşayıb. Xocalı faciəsi ermənilərin qəddarlığını bütün cəhətləri ilə açıb ortaya qoyur.

**Erməni cinayətlərinin dəhşətli statistikası**

Artıq Xocalı faciəsindən bizi 34 illik zaman məsafəsi ayırır. Xocalıda baş verənlər əvvəlcədən hazırlanmış məkrli planın tərkib hissəsi idi. Fevralın 25-dən 26-na keçən gecədə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum edib və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutub. Faciə günü Xocalı şəhərini tərk edən əhali pusquya salınıb və Naxçıvanlı, habelə Pircamal kəndləri yaxınlığında erməni hərbi postları tərəfindən ya atəşə tutularaq qətlə yetirilib, ya da əsir götürülüb. Hücum başladıqdan sonra şəhərdə qalan 2500-ə yaxın əhali azərbaycanlıların nəzarətində olan ən yaxın məkana çatmaq məqsədilə şəhəri tərk etməyə cəhd göstərib. Əsasən qadın və uşaqlardan ibarət əhalinin qalan hissəsi dağlarda, meşələrdə təqibdən gizlənən zaman donvurma nəticəsində həyatını itirib.

Bu soyqırımı nəticəsində 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə ahıl olmaqla bütövlükdə 613 nəfər həyatla vidalaşıb. 8 ailə tamamilə məhv edilib. 56 nəfər xüsusi qəddarlıqla - diri-diri yandırılaraq, başının dərisi soyularaq, boynu vurularaq, gözləri çıxarılaraq, hamilə qadınların isə qarın boşluğuna süngü ilə vurularaq öldürülüb. Faciə nəticəsində 27 ailənin yalnız 1 üzvü qalıb, 25 uşaq hər iki valideynini itirib, 487 insan şikəst olub, 1275 insan əsir götürülüb, 150 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur.

İşğal nəticəsində Xocalı şəhəri xarabalığa çevrilib. Belə ki, burada 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, üç mədəniyyət evi və bir tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, yerlə-yeksan olunub, qəbiristanlıq vandallara xas üsullarla dağıdılıb, qəbirlər təhqirlərə məruz qalıb.

Xocalı faciəsinin miqyası o qədər böyükdür ki, onu dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda kimi soyqırımları ilə müqayisə edirlər. Prezident İlham Əliyev xüsusi amansızlıqla törədilən faciəni dəyərləndirərək belə deyib: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı siyasətinin qanlı səhifəsidir".

**Faciəyə siyasi qiymət verilməsi**

Xocalı faciəsinin günahkarları ermənilərdir. Bu, sübuta, hər hansı bir müzakirəyə ehtiyacı olmayan həqiqətdir. Ancaq faciənin baş verməsində o dövrdəki Azərbaycan iqtidarının da böyük məsuliyyəti var. Açıq demək lazımdır ki, həmin illərdə respublikamızda güclü hakimiyyət yox idi, həmçinin bir sıra qüvvələr iqtidara gəlmək uğrunda mübarizə aparırdılar. Belə bir vəziyyətdə 1991-ci ilin sonlarından mühasirədə qalan Xocalının müdafiəsi təşkil olunmadı, dinc sakinlər şəhərdən çıxarılmadı. Mənfur düşmən isə bundan istifadə edərək öz planlarını həyata keçirdi.

Siyasi çəkişmələrin nəticəsi idi ki, 1992-ci ilin yazında qeyri-qanuni yolla hakimiyyətə gələn AXC- "Müsavat" iqtidarı Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməyə tələsmədi. Çünki diletant cütlüyün liderləri məhz məğlubiyyətlərimiz və faciələrimiz üzərində hakimiyyətə gəlməyə nail olmuşdular. AXC- "Müsavat" iqtidarının səriştəsiz idarəçiliyi Azərbaycanı dalana gətirib çıxartdı. Ölkədə vətəndaş qarşıdurması yaranmışdı. Belə bir şəraitdə xalq ümid yeri kimi o dövrdə Naxçıvanda yaşayıb çalışan Heydər Əliyevə üz tutdu, Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini təkid etdi. Heydər Əliyev çox sevdiyi xalqını ümidsiz qoymadı, onun səsinə səs verərək 1993-cü ilin yayında Bakıya gəldi və çətin vəziyyətdə olan respublikamıza rəhbərlik etməyin məsuliyyətini öz üzərinə götürdü.

Heydər Əliyevin dövlət başçısı kimi gündəmə gətirdiyi vacib məsələlərdən biri də Xocalı faciəsinə siyasi qiymət verilməsi oldu. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Heydər Əliyev hadisələrə siyasi qiymətin verilməsinin zəruriliyini bildirdi, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərdi. Onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Prezident Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilib. Həmçinin 1998-ci ildə Heydər Əliyevin müvafiq Sərəncamında Xocalı faciəsi soyqırımı adlandırılıb. 2002-ci ildə isə Milli Məclisdə soyqırımının 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlər soyqırımı kimi tanınıb.

**Beynəlxalq səviyyədə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası**

Xocalı faciəsinin qurbanlarının xatirəsi hər bir azərbaycanlı üçün çox əzizdir. Hər il paytaxt Bakıda və bölgələrimizdə Xocalı faciəsinin ildönümü tədbirləri yüksək səviyyədə keçirilir.

Eyni zamanda, faciənin dünya miqyasında tanıdılması istiqamətində görülən işlər geniş miqyas alıb. Xüsusilə Heydər Əliyevin adını daşıyan Fond bu istiqamətdə fəal iş aparır. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası uğurla davam etdirilir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı soyqırımını qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.




**Xocalı şəhidlərinin qanı yerdə qalmadı**

Vətən müharibəsində Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror əməliyyatı nəticəsində separatçılardan təmizlənib. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. 2025-ci il fevralın 25-də dövlətimizin başçısı "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" Sərəncam imzalayıb. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin təməlqoyma mərasimi 2024-cü il 26 fevral tarixində baş tutub.

Hazırda Xocalının bərpası, burada zəruri infrastrukturun qurulması, yaşayış məntəqələrinin bərpası işləri sürətlə davam etdirilir. Həmçinin xocalıların yurd həsrətinə son qoyulur. 2026-cı il 20 yanvar tarixinə qədər Xocalı şəhəri və kəndlərinə ümumilikdə 881 ailə, 3.602 nəfər köçürülüb. Faciənin növbəti ildönümü ərəfəsində - fevralın 19-da Xocalı rayonunun Xanabad kəndinə ilk köç həyata keçirilib. Xanabad kəndinə ilkin mərhələdə 154 nəfərdən ibarət 38 ailə qayıdıb.

*Mübariz ABDULLAYEV*

# Xocalı soyqırımı: siyasi, hüquqi və geopolitik məsələlər

Bəşəriyyət əleyhinə cinayət olan Xocalı soyqırımının törədilməsindən 34 il ötür. Bu dəhşətli faciənin mahiyyətini daha yaxşı anlamaq üçün bir sıra tarixi, siyasi, hüquqi və geopolitik məsələlərə nəzər yetirmək məqsədəmüvafiq olar.

**Erməni vandalizminin daha bir nümunəsi, yaxud Xocalı nə üçün hədəf seçilmişdi?**

Əvvəla, Xocalı faciəsi erməni vandalizminin daha bir nümunəsi, yaxud təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin növbəti qanlı səhifəsi idi;

Baş verənlərə nəzər saldıqda ilk olaraq "Xocalı nə üçün strateji hədəf kimi seçilmişdi" sualını cavablandırmaq zərurəti yaranır. Şübhəsiz ki, Xocalının hədəf seçilməsi və şəhər sakinlərinə qarşı soyqırımının həyata keçirilməsi təsadüfi deyildi. Xocalı coğrafi mövqeyinə görə olduqca mühüm strateji əhəmiyyət kəsb edirdi. 7000 nəfər əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşirdi. Şəhərin strateji önəmini artıran növbəti amil isə budur ki, Qarabağdakı yeganə aeroport da Xocalıda yer alırdı. Bütün bunlar Xocalıya təcavüzü şərtləndirən geostrateji amil qismində çıxış edirdi;

**İnformasiya müharibəsi və diplomatik mübarizə müstəvisində...**

Həmin dövrdə məsələyə siyasi-hüquqi qiymət verilməsi zərurət və mühüm vəzifə kimi qarşıda dururdu. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 26 fevralı Xocalı Soyqırımı Günü olaraq qəbul etdi. 25 fevral 1997-ci il tarixində Heydər Əliyevin Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Sərəncam imzalaması, 2002-ci ildə isə Milli Məclisdə soyqırımının 10 illiyi qətnaməsində 1992-ci ilin 26 fevralında baş verənlərin soyqırımı kimi tanınması hüquqi qiymətləndirmə baxımından mühüm əhəmiyyətə malik idi;

Bu gün dünyanın bəzi ölkələrində erməni yalanlarının və erməni diaspor təşkilatlarının ianələrinin girovuna çevrilən siyasətçilər XX əsrin əvvəlində baş verdiyi iddia edilən qondarma "erməni soyqırımı" yalanlarını "araşdırmaq"la dünya ictimaiyyətini manipulyasiyaya məruz qoymağa çalışırlar. Belə olan halda, cəmi 34 il öncə baş vermiş və hələ də bir sıra şahidlərinin həyatda olduğu, haqqında minlərlə dəlil olan əsl soyqırımının - Xocalı faciəsinin tanınması istiqamətində informasiya müharibəsi və diplomatik mübarizə müstəvisində sistemli fəaliyyətin həyata keçirilməsi strateji zərurət kimi çıxış edir. Azərbaycan dövləti tərəfindən Xocalı soyqırımı ilə bağlı tədbirlər, müxtəlif xarakterli aksiyalar ölkədə və respublikamızın inzibati-coğrafi cəhətlərindən kənarda təkcə faciənin baş verdiyi tarix ərəfəsində deyil, bütövlükdə il ərzində reallaşdırılır. Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlər çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində keçirilən genişmiqyaslı tədbirlər, görülən işlər də konkret nəticələrini verir. Bu kampaniyanın uğurla davam etdirilməsi nəticəsində erməni vandallarının soyqırımı siyasəti dünya miqyasında daha geniş miqyasda ifşa edilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan hücum diplomatiyasına dəstək xarakterli "Xocalıya ədalət!" beynəlxalq kampaniyası qarşıya qoyulan hədəflərə çatır. Bütövlükdə, bir sıra ölkələrin parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq olunub. Eyni zamanda, Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" olduğunu müəyyən edib.

**Beynəlxalq hüquq normaları əsasında qiymətləndirmə...**

Bu gün əsas müzakirə predmetinə çevrilən və diqqət mərkəzində saxlanılan məsələ Xocalı faciəsinin beynəlxalq hüquq normalarına əsasən qiymətləndirilməsidir. Əvvəla qeyd etmək lazımdır ki, BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsinə və 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul olunmuş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyaya əsasən, Xocalıda törədilmiş kütləvi qətliam məhz soyqırımıdır. Xocalının zəbt olunması üzrə həyata keçirilmiş hərbi əməliyyat zamanı şəhərin dinc əhalisinə qarşı kütləvi zorakılıq törədilib ki, bu, beynəlxalq hüquq normalarına əsasən qəbul edilmiş konvensiyalara müvafiq surətdə hərbi cinayət kimi xarakterizə olunur. Azad dəhliz barədə məlumat Xocalının əhalisinə çatdırılmaması da müvafiq konvensiyalara ziddir. Konkret olaraq Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə konvensiyasına, fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsinə, həmçinin Ümumdünya İnsan Haqları Bəyannaməsinin II, III, V, IX, XVII maddələrinə ziddir. Eyni zamanda, Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı 1949-cu il Cenevrə konvensiyaları, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Nəhayət, BMT-nin "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyasına əsasən, soyqırımını törədənlər milli və beynəlxalq qanunvericiliyə uyğun olaraq cəzalandırılmalıdırlar. Bir sözlə, faciəni törədənlər mütləq ədalət mühakiməsinə cəlb olunmalıdırlar;

**Şəhidlərin qanı yerdə, qisas isə qiyamətə qalmadı!**

Xocalı soyqırımı qurbanlarının qanı yerdə, qisas isə qiyamətə qalmadı. 2023-cü ilin sentyabr ayında Azərbaycanın həyata keçirdiyi bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində şəhərin uzunmüddətli hərbi-siyasi əsarətdən xilas edilməsi, oktyabrın 15-də isə Prezident İlham Əliyevin üçrəngli dövlət bayrağımızı Xocalıda ucaltması xalqımızın şərəfli dövlətçilik tarixinin ən qürurverici səhifələrindəndir. Müzəffər Ali Baş Komandanımızın qeyd etdiyi kimi: "Biz Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq!".




*Nurlan QƏLƏNDƏRLİ,*
*Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib






Fevralın 25-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Birinci Türkoloji Qurultayın 100 illik yubileyi münasibətilə keçiriləcək tədbirdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Kürşad Zorlunun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasındakı bütün dünyaya nümunə olan sarsılmaz dostluq və qardaşlıq münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək keyfiyyətcə yeni mərhələyə - strateji müttəfiqlik səviyyəsinə yüksəldiyi məmnunluqla vurğulanıb. Bu gün iki ölkənin bir-birinə qətiyyətli dəstək ifadə etdiyi, Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir" kəlamlarının öz əməli təsdiqini tapdığı vurğulanıb.

2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn öhdəliklərin ardıcıl olaraq yerinə yetirilməsinin istər ikitərəfli əlaqələrin, istərsə də regionda çoxşaxəli işbirliyinin genişləndirilməsi kontekstində önəmi diqqətə çatdırılıb. Müstəqil, milli maraqlara və beynəlxalq hüquq normalarına əsaslanan siyasət həyata keçirərək dünyada söz və nüfuz sahibinə çevrilən iki müttəfiq dövlətin qlobal miqyasda bir-birini fəal şəkildə dəstəkləməsinin ortaq strateji hədəflərin gerçəkləşdirilməsi baxımından əhəmiyyəti xüsusi qeyd olunub.

Azərbaycanın ərazi bütövlüyü və mütləq suverenliyinin bərpasından sonra regionda yeni reallıqların yarandığı, bu tarixi mərhələnin ölkələrimiz və partiyalarımız üçün milli prioritetlərdən irəli gələn mühüm vəzifələr müəyyənləşdirdiyi vurğulanıb.

Azərbaycan ilə Türkiyənin birgə təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyi, ölkələrimizin birliyinin daha geniş coğrafiyada, o cümlədən Türk dünyasında təhlükəsizlik və əməkdaşlıq faktoru olduğu, eləcə də son illərdə yüksələn güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmlənməsinə mühüm töhfələr verdiyi bildirilib.

Görüşdə Türk dövlətləri, o cümlədən etibarlı strateji müttəfiqlər olan Azərbaycan ilə Türkiyə arasında münasibətlərin inkişafı xüsusunda partiyalararası əlaqələrin gücləndirilməsinin zəruriliyi də vurğulanıb. 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolunda əksini tapan vəzifələrin uğurla icra olunduğu qeyd edilərək aktual çağırışlar fonunda ortaq hədəflərə və yeni perspektivlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Partiyalar arasında fikir və təcrübə mübadiləsinin genişləndirilməsi üçün qarşılıqlı səfərlərin önəminin vurğulandığı görüş zamanı AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini Kürşad Zorlu Yeni Azərbaycan Partiyasının nümayəndələrini cari ildə Türkiyədə keçirilməsi nəzərdə tutulan Türk Dünyası Birinci Siyasət Forumuna dəvət edib.

# Nəsimi rayonunda Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar Xocalı sakinləri ilə görüş keçirilib





Xocalı faciəsinin ildönümü respublikamızın hər yerində olduğu kimi Bakı şəhərinin Nəsimi rayonunda da geniş şəkildə qeyd olunur. Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanmış tədbirlər planına uyğun olaraq rayonun idarə və təşkilatlarında, orta və ali təhsil müəssisələrində faciə ilə bağlı müxtəlif tədbirlər təşkil edilir.

Faciənin 34-cü ildönümü ilə əlaqədar Nəsimi Rayon İcra Hakimiyyətində keçirilən görüşdə əvvəlcə Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Görüşdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və bu soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülmüş işlər barədə ətraflı məlumat verib. Bildirilib ki, faciənin beynəlxalq miqyasda tanıdılması istiqamətində Ulu Öndər Heydər Əliyevin mühüm xidmətləri olub. Məhz onun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ilk dəfə bu məsələyə siyasi qiymət verilib və faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli işlərə başlanılıb.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Xocalı faciəsinin ildönümü hər il həm respublikamızda, həm də ölkə hüdudlarından kənarda geniş şəkildə qeyd olunur.

Xüsusi vurğulanıb ki, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi dövlətimizin və xalqımızın iftixar mənbəyinə çevrilib. Bu müharibədə Azərbaycan xalqı milli həmrəyliyini və gücünü bütün dünyaya nümayiş etdirərək 30 ildən artıq işğal altında olan torpaqlarını işğaldan azad etdi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu.

Bildirilib ki, 2020-ci il Vətən müharibəsindən və 2023-cü il bir günlük antiterror tədbirindən sonra yaranmış yeni reallıqlar Xocalıya qayıdış üçün şərait yaradıb. "Böyük Qayıdış" proqramı çərçivəsində Xocalı şəhərinin bərpası, yaşayış evlərinin və infrastrukturun yenidən qurulması istiqamətində işlər davam etdirilir. Bu gün Xocalı sakinlərinin mərhələli şəkildə doğma yurdlarına qayıdışı dövlət strategiyasının əsas prioritetlərindən biridir.

Tədbirdə çıxış edən Xocalı sakinləri Sahibə Şahmuradova, Tacəddin Səfərov və Məlahət Məmmədova onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# 10-cu görüş

# Üçtərəfli parlament diplomatiyası...

## Bu platforma regional əməkdaşlığı gücləndirir

Azərbaycanın xarici siyasətində qonşu ölkələrlə fəal əməkdaşlıq mühüm yer tutur. Qonşu ölkələrlə əlaqələrin inkişafında üçtərəfli platforma çərçivəsində keçirilən görüşlər və imzalanan sənədlər xüsusi vurğulanmalıdır.

**Üç qonşu ölkənin ənənəsi davam edir**

Qeyd edək ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli platforma uzun müddətdir mövcuddur. Hər üç ölkənin liderlərinin, xarici işlər və müdafiə nazirlərinin görüşləri mütəmadi olaraq keçirilir. Eləcə də belə görüşlər parlament müstəvisində də reallaşdırılır. Azərbaycan, Gürcüstan və Türkiyə arasında təməli illər öncə qoyulan uğurlu siyasi, iqtisadi əməkdaşlıq Avropa və Asiya qitələrinin qovuşuğunda yerləşən Cənubi Qafqaz regionunun strateji əhəmiyyətini xeyli artırıb. Bakı ilə Ankaranın təşəbbüsləri, o cümlədən sülh diplomatiyası bölgədə sabitlik, təhlükəsizlik və əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır. Postmüharibə dövründə bölgədə qlobal əhəmiyyətli yeni geostrateji konfiqurasiyanın formalaşmasında Azərbaycan-Türkiyə müttəfiqliyi aparıcı faktor kimi çıxış edir. Qonşu Gürcüstan da iki dövlətlə birgə addımlayaraq regionun strateji gələcəyini birlikdə inşa etmək istəyini və niyyətini aydın ifadə edir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı sıx üçtərəfli siyasi, iqtisadi əlaqələrdən doğan birgə layihələrin gerçəkləşməsi bölgənin inkişafında, sabitliyinin qorunmasında və dünyaya inteqrasiyasında aparıcı faktora çevrilib. Nəhəng enerji şirkətlərinin də iştirak etdiyi Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahələri üzrə əməkdaşlığı öz səmərəliliyinə görə dünyada nümunəvi təcrübələrdən biri hesab oluna bilər. Azərbaycan, Gürcüstan və Türkiyənin enerji sahəsində əməkdaşlığı həm region dövlətlərinin iqtisadi, siyasi və təhlükəsizlik maraqlarına, həm də Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyini təmin etmək siyasətinə uyğundur. Xatırladaq ki, üç ölkənin əməkdaşlığı ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi reallığa çevrilib. Bundan əlavə, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçtərəfli strateji əməkdaşlığın səmərəli nəticələridir.

Qeyd edək ki, üçtərəfli platforma çərçivəsində Türkiyə, Azərbaycan və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin iclaslarının keçirilməsi də ənənə halını alıb. Hələ 2024-cü ilin 3 dekabrında Ankarada keçirilmiş 9-cu iclasda 10-cu iclasın Bakıda keçirilməsi qərara alınmışdı. Bu qərara uyğun olaraq iki gün gün öncə - fevralın 24-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclası keçirilib.



**Əməkdaşlığın perspektivləri böyükdür**

Tədbiri giriş sözü ilə açan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın perspektivləri, regionda sülh və sabitliyin əhəmiyyəti, bərpaolunan enerji sahələrində görülən işlər, bu sahədə parlamentlərin rolu, parlamentlərarası əlaqələrin inkişafı, ölkələrimiz üçün ortaq maraq kəsb edən məsələlərdə qanunvericiliyin uyğunlaşdırılması, Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərindən bəhs edib. O, eyni zamanda, COP31-in Türkiyədə keçirilməsinin əhəmiyyəti, Azərbaycanın beynəlxalq arenada artan nüfuzu, ABŞ-la münasibətlərin inkişafı, Azərbaycan və Gürcüstanın müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığı, regionda yaşıl enerji, nəqliyyat və kommunikasiya sahələrinin gələcəyi və digər məsələlər barədə fikirlərini bölüşüb.

Milli Məclisin komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan öz qonşuları ilə münasibətlərə böyük önəm verir və qonşu ölkələrdə sabitliyin tərəfdarıdır. O, bu görüşün ölkələrimiz arasında üçtərəfli əməkdaşlığın, parlament diplomatiyasının daha da güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Çıxış edən Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Fuad Oktay bu cür tədbirlərin parlament diplomatiyasının inkişafı və regional həllərin tapılması baxımından mühüm əhəmiyyətini qeyd edib. O, Cənubi Qafqazda sülh və sabitliyin qorunmasının Türkiyə üçün prioritet olduğunu və ölkəsinin Azərbaycanla Ermənistan arasında normallaşma prosesini güclü şəkildə dəstəklədiyini diqqətə çatdırıb. Türkiyə parlamentinin komitə sədri parlament diplomatiyasının imkanları, Tramp marşrutunun əhəmiyyəti, regionda həyata keçirilən layihələr, dünyada mövcud geopolitik vəziyyət və digər məsələlər barədə danışıb. O, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin bütün regionun və qonşu ölkələrin inkişafına öz töhfələrini verəcəyinə inamını bildirib. Komitə sədri dünyada gedən geosiyasi tranformasiyaların və qlobal qeyri-müəyyənliklərin enerji və nəqliyyat sahələrində diversifikasiyanın vacibliyini bir daha vurğuladığını diqqətə çatdırıb.

Sonra çıxış edən Gürcüstan Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze bu formatda iclasın keçirilməsinin əhəmiyyətindən danışıb və Gürcüstanın bu formata böyük önəm verdiyini qeyd edib. O, parlament diplomatiyasının bu üç ölkə arasında münasibətlərin inkişafındakı rolunu diqqətə çatdırıb. Komitə sədri dünyadakı münaqişələr, geosiyasi vəziyyət barədə fikirlərini bölüşüb və Gürcüstanın münaqişələrin sülh yolu ilə həllinə sadiq qaldığını qeyd edib. Nikolaz Şamxaradze sülhün iqtisadi inkişaf üçün mühüm amillərdən biri olduğunu və Gürcüstan iqtisadiyyatının ötən il inkişafına görə dünyada ikinci yerdə olduğunu diqqətə çatdırıb. Komitə sədri Gürcüstanın Türkiyə və Azərbaycanla iqtisadiyyat və turizm sahəsində əməkdaşlığı barədə danışıb, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrinin regional əməkdaşlıqda rolu və ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri barədə fikirlərini açıqlayıb.

**Əlaqələr strateji xarakter daşıyır**

İclasda çıxış edən Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev bildirib ki, Türkiyə və Gürcüstan parlamentləri ilə birgə keçirilən bu iclas regionumuzun gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir və üç ölkə arasında strateji tərəfdaşlığın parlament ölçüsündə daha da dərinləşdirilməsi baxımından xüsusi platformadır. O, diqqətə çatdırıb ki, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, sərhəd təhlükəsizliyi, hibrid təhdidlər və informasiya təhlükəsizliyi kimi məsələlər üç ölkənin ortaq gündəliyində xüsusi yer tutur. Bildirilib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlıq artıq uzun illərdir ki, təkcə siyasi deyil, həm də iqtisadi və təhlükəsizlik sahələrində strateji xarakter daşıyır.

Qrupun rəhbəri bildirib ki, bu kontekstdə parlament diplomatiyası xüsusi əhəmiyyət kəsb edir. Parlament dostluq qrupları dövlətlərarası münasibətlərin yumşaq güc elementlərindən biridir. Bu platformalar vasitəsilə qanunvericilik təcrübəsi paylaşılır, regional layihələrin hüquqi bazası gücləndirilir, humanitar və mədəni əlaqələr təşviq edilir, ictimai diplomatiya inkişaf etdirilir.

Sonra çıxış edən hər üç ölkənin deputatları Mehmet Güzelmansur, İrakli Şatakişvili, Nigar Arpadarai, İsmail Özdemir, Nigar Məmmədova, Metin Ergün, Zaur Şükürov, Fariz İsmayılzadə, Mustafa Canbey, Sevinc Fətəliyeva, Gülşən Paşayeva, Pərvanə Vəliyeva, Rizvan Nəbiyev parlamentlər arasında bu cür üçtərəfli görüşlərin əhəmiyyətindən danışıblar. Deputatlar COP31-in Türkiyədə keçirilməsi, texnologiyaların və süni zəkanın inkişafı, ətraf mühitin qorunması, ölkələr arasında qanunvericiliklərin uyğunlaşdırılması, saxta informasiyaların qarşısının alınması, kibertəhlükəsizliyin təmin edilməsi və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüblər.

*Nardar BAYRAMLI*

# Gömrükdə yeni borc ödənişi qaydası



## ƏDV üzrə gömrük borcunun hesablanması qaydası dəyişib

Nazirlər Kabineti 7 may 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Qaydası"nda dəyişiklik edib. Hökumətin qərarına əsasən, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2025-ci il 14 iyul tarixli qanununun icrası ilə əlaqədar qanunvericilikdə bir sıra yeni dəişikliklər nəzərdə tutulur. Belə ki, gömrük borcu hesablanmış gömrük ödənişləri üzrə borclu olan və ya Gömrük Məcəlləsinin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə etməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə bilər. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi ilə əlaqədar yarana biləcək gömrük ödənişləri sahibkarlıq subyekti olmayan fiziki şəxs, habelə Gömrük Məcəlləsinin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə edilməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödəniləcək.

Bu o deməkdir ki, gömrük borcu birbaşa borclu şəxs tərəfindən ödənilməklə yanaşı, təminat çərçivəsində kommersiya məqsədi daşımayan malları ölkəyə gətirən fiziki şəxslərin təminat verdiyi məsul şəxs də ödəyə bilər.

**Borcun ödənilməsi üsulları**

Gömrük Məcəlləsinin 258-ci maddəsi gömrük borcunun ödənilməsinin təmin edilməsi üsulları müəyyən edir ki, buraya girov, veksel zaminliyi, bank qarantiyası, ödənilməli olan məbləğin gömrük orqanının depozit hesabına köçürülməsi, sığorta müqavilələri, üçüncü şəxsin zaminliyi, avans ödəmələr daxildir. Yəni biznes nümayəndəsi və ya fərdi şəxslər gömrük borcunun ödənilməsinin təmin edilməsi üçün həmin təminatlardan istifadə etmək hüququ daşıyırlar. Bu o deməkdir ki, fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi ilə bağlı yaranacaq hansısa gömrük ödənişləri borcu girov, veksel və bank qarantiyası ilə bərabər, ƏDV öhdəliyi təminat verdiyi halda öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə biləcək.

Qeyd edək ki, ƏDV üzrə borc gömrük əməliyyatları zamanı təyin edilən ödəniş öhdəliklərindən biridir. NK-nın təsdiqlədiyi "Əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Qaydası"na əsasən, əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Gömrük Məcəlləsinin 242.5-ci maddəsinə əsasən müəyyən edilir. Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara Gömrük Məcəlləsinə və Vergi Məcəlləsinə uyğun olaraq ƏDV tətbiq edilir. ƏDV üzrə gömrük borcu Azərbaycan milli valyutası ilə ödənilir. Xarici valyutanın Azərbaycan Respublikasının milli valyutasına çevrilməsi, bəyannamənin qəbul edildiyi günə Mərkəzi Bankın müəyyən etdiyi məzənnələrlə hesablanır. Gömrük borcu gömrük orqanına yalnız bank və digər elektron ödəmə üsulları ilə aparılır. Ölkəyə mal gətirən və ya mal ixrac edən şəxslər gömrük orqanlarına gömrük bəyannaməsini təqdim edərək borcun ödəyicisi hesab edilirlər. ƏDV üzrə gömrük borcunun hesablanması idxal olunan mallara münasibətdə gömrük sərhədini keçən gündən, ixrac olunan mallara münasibətdə isə mallara dair bəyannamənin təqdim olunduğu gündən başlanır və həmin gün qüvvədə olan vergi dərəcəsi əsas götürülür. ƏDV üzrə gömrük borcunun məbləği hesablanarkən, malların Gömrük Məcəlləsi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun qaydada müəyyən edilən gömrük dəyərinin, aksiz vergisinin və gömrük rüsumlarının məbləğinin cəmi əsas kimi qəbul olunur. Borc gömrük orqanları tərəfindən gömrük bəyannaməsi təsdiq edilənədək və ya gömrük bəyannaməsinin təsdiqi ilə eyni vaxtda ödənilir.

**ƏDV öhdəliyi olan və olmayanlar**

Vergi Məcəlləsinin 159.3-cü maddəsinə əsasən, malların idxalı vergidən azad edilən mallar istisna edilməklə, vergi tutulan idxal sayılır. Tranzit qaydada və müvəqqəti idxal şəklində Azərbaycan ərazisinə daxil olan mallar ƏDV-nin obyekti sayılmır. Tranzit dedikdə, hər hansı hüquqi və ya fiziki şəxsin mallarının bir ölkədən digər ölkəyə daşınması zamanı üçüncü və ya daha çox ölkənin ərazisindən istifadə etməsi nəzərdə tutulur. Müvəqqəti idxal zamanı isə mallar bir ölkəyə daxil olur, amma müəyyən müddətdən sonra geri qaytarılır. Eləcə də mallar, işlər və xidmətlər Azərbaycan Respublikasının hüdudlarından kənarda təqdim olunursa, bu zaman ƏDV öhdəliyi yaranmır, belə dövriyyələr ƏDV obyekti hesab edilmir.

Bu iki halda mallar ƏDV-yə cəlb olunmur. Digər hallarda gömrükkeçmə əməliyyatları ƏDV-yə cəlb edilir. İdxal edilmiş mallar üzrə ƏDV-nin hesablanması Vergi Məcəlləsinin 162-ci maddəsinə əsasən, vergi tutulan idxalın dəyəri müəyyən edilməklə hesablanmış məbləğə 18 faiz ƏDV dərəcəsi tətbiq olunur. İdxal edilmiş malların ƏDV-yə cəlb olunan dəyəri 3 elementin cəmindən formalaşır: malların gömrük dəyəri, ödənilməli olan gömrük rüsumları və vergilər.

Beləliklə, ƏDV üzrə gömrük borcunun məbləğinin hesablanması qaydasının dəyişməsi təminat müqabilində borcun digər şəxslər tərəfindən ödənilməsinə də imkan verəcək. Bu isə ölkəyə mal gətirən və ixrac edən şəxslərin işini asanlaşdıracaq, onların hər hansı bir işi zamanı fiziki vaxt itkisinin qarşısını alacaq. Eyni zamanda, gömrük borcu ilə bağlı meydana çıxan problemləri aradan qaldırmaqla, ƏDV üzrə gömrük daxilolmalarında mobilliyi təmin edəcək.

*E.CƏFƏRLİ*

# Müasir şəraitdə Azərbaycan dilinin inkişaf konsepsiyası

Ana dili xalqın varlığını təmin edən ən önəmli amildir. Ana dili sadəcə ünsiyyət vasitəsi deyil, xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir. Müasir beynəlxalq inteqrasiya şəraitində ana dilinin qorunmasında çağdaş Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin ideya və əməllərinin sadiq davamçısı Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dövründə yüksək səviyyədə təmin edilmişdir. Azərbaycan dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqaməti bu gün də müasir siyasi baxışlara uyğun səviyyədə aparılmaqdadır. Müstəqillik illərində Azərbaycan dövlətinin Prezidenti İlham Əliyevin ana dilinin dövlət dili kimi inkişafı ilə bağlı apardığı siyasət, gördüyü məqsədyönlü işlər Azərbaycan dilinin nüfuzunun yüksəlməsinə və dünya dilləri arasında mötəbər mövqe qazanmasına imkanlar yaradır. Xalqın varlığında mənəvi dəyərləri əsas götürən İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır və dövlət idarəçiliyinin bütün sahələrində olduğu kimi, dil siyasətində də ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu strateji xətti inam və uğurla inkişaf etdirir. Prezident İlham Əliyevin dövlətçiliyin inkişafı ilə bağlı apardığı ardıcıl və uğurlu dövlət quruculuğu siyasəti müstəqilliyimizin möhkəmlənməsi ilə səciyyələnir. Dövlətin əsas atributlarından olan Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi dövlətçilik siyasətində həmişə önəmli yer tutmuşdur. Azərbaycan dilinin dövlət dili olaraq funksionallaşmasının, eləcə də beynəlxalq nüfuzunun qarşısını alan manelər aradan qaldırılır. Xüsusilə, dövlət dilinin inkişafı ilə bağlı verilən silsilə sərəncam və fərmanlar, eləcə də müxtəlif dövlət tədbirlərində çıxışları zamanı qeyd etdiyi dəyərli fikirlər bunu sübut edir. Dövlət dilinin ictimai nüfuzunun qaldırılması ilə bağlı aparılan siyasət milli ictimai təfəkkürü inkişaf etdirir. Azərbaycan dilinin hərtərəfli inkişafı ilə bağlı gördüyü tarixi işlər isə onun dövlət dili olaraq siyasi mövqeyini möhkəmləndirir. Bu baxımdan Azərbaycan mənəviyyatını, azərbaycançılıq ideologiyasını, milli-mənəvi varlığı özündə əks etdirən milli irsimizin latın qrafikasında yenidən nəşr edilməsi məhz dövlət başçısının təşəbbüsü ilə həyata keçirildi. Prezident İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü il 13 yanvar tarixində imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il 30 dekabrda "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamları dövlət dilinin inkişaf perspektivlərinin əsasını qoydu və ana dilinin tətbiq sahələrini genişləndirdi, əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Bunun nəticəsi olaraq kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin olundu. Dövlət başçısının sərəncamları əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər Azərbaycan və dünya ədəbiyyatının latın qrafikası ilə nəşrini tam əhatə edir.

Prezident İlham Əliyev tərəfindən 23 may 2012-ci ildə imzalanmış "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli Sərəncamı Azərbaycan dilinin dövlət dili kimi tətbiq və inkişaf sahələrini genişləndirdi. Sərəncamda vurğulanır: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində də bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir".

Bu sərəncamda Azərbaycan dilinin tarixi əsasları barədə mükəmməl təsəvvür yaradılmaqla yanaşı, dövlət dilində özünü göstərən qüsurlar və problemlərdən bəhs edilmişdir. Azərbaycan dilinin qədimliyini əks etdirən tədqiqatların aparılması, tarixi gerçəkliklərin üzə çıxarılması əsas məsələ kimi qeyd edilmişdir. Xüsusilə, Azərbaycan dilinin mənşəyi, tarixi ilə bağlı davam edən yanlış konsepsiyaya tarixi faktlara əsaslanaraq son qoyulması Sərəncamda öz əksini tapmışdır. Bununla yanaşı, bu tarixi sənəddə Azərbaycan dilinin dövlət dili kimi qorunması, inkişaf etdirilməsi üçün həm inzibati, hüquqi-siyasi, həm də elmi-nəzəri istiqamətlər müəyyənləşdirilir. Qeyd edilir ki, Azərbaycan dili zəngin imkanlara malik olan bir dildir. Bu dildə elmi üslubun inkişaf yolları müəyyənləşdirilir və elmin, texnikanın, incəsənətin, istehsalatın, ictimai fəaliyyətin bütün sahələrində anlayışlar sistemi imkan daxilində dilin öz hesabına yaranması, dilin öz daxili inkişaf qanunları ilə təşəkkül tapıb inkişaf etdirilməsi nəzərdə tutulur. Bu nəzərə alınaraq 23 may 2012-ci ildə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncamda Azərbaycan dilində termin yaradıcılığı sahəsində işlərin tənzimlənməsi və koordinasiya edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının yaradılması qərara alınmışdır. Sərəncamın verilməsi ilə tarixi ənənəyə malik olan dilimizin saflığı, təmizliyi, elmi dilimizin inkişafı istiqamətində fəaliyyət göstərən Terminologiya Komissiyasına yeni status verilmiş, onun funksiyaları daha da genişləndirilmiş, respublika daxilində termin yaradıcılığı prosesinin müəyyənləşdirilməsi vacib bir problem kimi önə çəkilmişdir.

Azərbaycan dilinin lüğət tərkibinin ən fəal layı olan terminologiya sosial-iqtisadi inkişaf, el-mi-texniki tərəqqi, qloballaşma ilə əlaqədar olaraq dəyişir, yenilənir. Həmin ifadələr müəyyən anlayışların, fikrin, yeniliyin düzgün qavranılmasında, yazı mədəniyyətinin inkişafında, sabitləşməsində böyük rol oynayır. Məhz beynəlxalq aləmə birbaşa çıxış dilin bütün səviyyələri ilə yanaşı, terminologiyaya da təsir göstərir. Elmi dili mütəxəssislər inkişaf etdirir. Orda dil texniki bir sistemə çevrilir. Ola bilər ki, bir elmi dil vahidi çox asanlıqla başqa dilə keçsin, orda inkişaf etsin. Lakin birinci növbədə xalqın intellektinin yüksək olmasından ötrü elmi dil vahidləri dilin daxili imkanları əsasında yaranmalıdır. Müasir dövrdə yalnız elm və texnikanın ayrı-ayrı sahələrinə aid, eyni zamanda, daha geniş mənada ictimai quruluşla bağlı meydana gələn məfhumların ifadəsi üçün qarşılıq axtarılarkən düzgün yol seçilmişdir. Elmi-texniki tərəqqi, ictimai-siyasi həyatın inkişafı terminoloji sistemlərin fasiləsiz olaraq dəyişməsinə və inkişafına təsir göstərir. Ona görə də dildə baş verən dəyişikliklər diqqətlə izlənilir və terminologiyanın inkişafı düzgün istiqamətləndirilir. Lüğətlərin tərtibində elmi-texniki tərəqqi ilə bağlı yeni terminlərin yaranmasında ana dilinin həlledici rolu nəzərə alınır. Yeni anlayışların ifadəsi üçün dilin lüğət tərkibi daxilində sözseçmə prinsipi ilə alınma sözlərin qarşılığı tapılır, kalka yolu ilə yaradılan terminlərin istifadəsinə geniş yer verilir. Azərbaycan dilinin yad təsirlərin qalıqlarından təmizlənməsi birinci növbədə xalq dilinin zəngin xəzinəsi hesabına, dilimizin öz imkanları hesabına olmalıdır. Ona görə ki, terminlərin yaradılması hər bir dilin özünəməxsus söz yaradıcılığı prosesidir. Azərbaycan dili müasir dövrdə elə bir inkişaf mərhələsinə çatmışdır ki, elmi-texniki inkişaf nəticəsində yaranmış müxtəlif fikirləri, sözləri, xüsusi elmi texniki anlayışları çox asanlıqla ifadə etmək mümkündür. Bu onu göstərir ki, Azərbaycan dili ictimai, siyasi, mədəni inkişafla bağlı olaraq tərəqqi edir, onun publisist, bədii və elmi üslubları daha da zənginləşir. Beynəlxalq terminlərin alınıb işlədilməsi isə tələbatı ödəmək üçün vacibdir. Bu dillərin qarşılıqlı zənginləşməsinin qanunauyğunluqlarından doğur. Lakin, bu məsələyə münasibətdə ifrata varmaq, dilimizə lüzumsuz yerə alınmaların gəlməsinə yol verməmək olmaz.

Hazırda Azərbaycan dilinin inkişafı ilə əlaqədar bir çox uğurlar əldə edilmişdir. Azərbaycan dili dövlət dilidir, elmi kitablar, bədii əsərlər, mətbuat bu dildə nəşr olunur, konfranslar, müşavirələr bu dildə aparılır, ali məktəb auditoriyalarında bu dildə mühazirələr oxunur. Bununla yanaşı, dilin inkişafında özünü göstərən bir sıra problemlər var. Ədəbi dilin dövlət idarələrində tətbiqi məsələsi, mətbuat dili, radio və televiziya dili, reklamların dili, virtual məkanda dilin qorunması düşündürücü detallardır. Azərbaycan dilinin dövlət dili statusu alması, yeni təhsil sisteminin yaradılması prosesində Terminologiya Komissiyasının vəzifələri daha da artmışdır. İndiyədək Terminologiya Komissiyasında aşağıdakı istiqamətdə işlər aparılır: elm və texnikanın, iqtisadiyyat və mədəniyyətin ayrı-ayrı sahələri üzrə terminoloji lüğətlərin hazırlanması və nəşri; terminlərin dövrü mətbuatda, televiziya və radioda, orta və ali məktəblərin dərsliklərində, idarə və müəssisələrin kargüzarlıq işlərində düzgün tətbiqinə nəzarət; terminologiyanın dilçilik problemlərinin işlənilməsi.

Azərbaycan dilində müxtəlif elm sahələrinə aid terminoloji baza dilin öz daxili imkanlarından əlavə rus və Avropa dillərindən alınmış beynəlxalq terminlər əsasında formalaşmışdır. Bu müəyyən mənada müstəqil türk dilli dövlətlərin ortaq elmi terminologiyaya malikliyini şərtləndirir. Türk dilləri üçün ortaq terminoloji bazanın yaradılması bu gün üçün aktual olan bir məsələdir. Dilimizdə müxtəlif dillərdən alınan beynəlxalq terminlərin sayı gündən-günə artır. Ona görə də ortaq terminoloji bazanın yaradılmasında beynəlxalq terminlər təyin edilmiş vahid mənbədən alınmalıdır. Anlayışı dəqiq ifadə edən termin ortaq türk dilləri üçün qəbul olunmalıdır. Belə bir məsələnin həlli həm terminologiyanın standartlaşdırılması üçün şərait yaradır, həm də türk dillərinin lüğət tərkibinin vahid mənbədən inkişafına təkan verir. Bu məsələnin həlli həm vahid beynəlxalq terminologiyanın yaradılmasına şərait yaradır, həm də elmlərin inkişafına təkan verir. Terminoloji fondun yaradılması üçün müxtəlif sahələrə aid ortaq terminoloji lüğətlər tərtib olunur.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında son illərdə terminologiyanı inkişaf etdirmək və təkmilləşdirmək məqsədilə elmin, mədəniyyətin, ictimai-siyasi həyatın bütün sahələri ilə bağlı baş verən dəyişikliklər nəzərə alınaraq mühüm istiqamətlər müəyyənləşdirilmiş və bu müddət ərzində elmin demək olar ki, bütün sahələrinə aid 200-dən çox terminoloji lüğət nəşr olunmuşdur. Bu lüğətlərdə dünya sivilizasiyasının, ictimai həyatın əksi olan terminoloji lüğətlərin tərtibi müxtəlif elm sahələrini birləşdirdiyi kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə birləşdirir.

Dövlət dilinin statusunun və işləkliyinin təmin edilməsi, təmizliyinin qorunması, tətbiqinin və tədqiqinin genişləndirilməsi baxımından Prezident İlham Əliyevin 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" Dövlət Proqramının müstəsna əhəmiyyəti vardır. Dövlət dilinin qorunması ilə bağlı mövcud vəziyyət dövlət proqramının iki əsas müddəasının- ana dilinin yad dillərin təsirindən qorunması və ədəbi dil normalarına birmənalı şəkildə əməl edilməsi tələblərinin vacibliyini şərtləndirir. Prezident İlham Əliyev Dövlət Proqramının tələblərinin yerinə yetirilməsi istiqamətində 2017-ci ilin oktyabrında Dövlət dilinin KİV-lərdə istifadə olunması ilə bağlı dilçi mütəxəssis və media nümayəndələrinin iştirakı ilə mövcud vəziyyətin geniş müzakirəsi və çıxış yollarının müəyyən edilməsi barədə xüsusi göstəriş vermişdir. Prezident İlham Əliyevin dilimizin inkişafında başlıca rol oynayan kütləvi informasiya vasitələri qarşısında qoyduğu vəzifələr də onun dilə dövlətçiliyin inkişaf konsepsiyasının tərkib hissəsi kimi yanaşmasını təsdiqləyir. Dövlət başçısı Milli Elmlər Akademiyasının 80 illiyi ilə bağlı keçirilən toplantıda, eləcə də yerli mətbuata verdiyi müsahibəsində dövlət dilinin yad təsirlərdən qorunması və saflığının təmin olunmasının vacibliyini xüsusi qeyd etmişdir.

Diqqət çəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, Prezident İlham Əliyevin dil siyasətində meydana çıxan yeni çağırışlar və müasir inkişaf tendensiyaları mütləq qaydada nəzərə alınır.Məsələn, Prezident İlham Əliyev 17 iyul 2018-ci ildə "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu Sərəncam ölkəmizdə dövlətçiliyin tərkib hissəsi olan dil siyasətinin ardıcıl olaraq aparılmasının məntiqi davamıdır və elektron məkanda yeni tarixi şəraitə uyğun olaraq Azərbaycan dilinin inkişafının tənzimlənməsi istiqamətini müəyyənləşdirir. "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" dövlət dilinin geniş dairədə tətbiqinin təmin edilməsinin strateji vəzifələrini həyata keçirməyə meydan açan dövlət əhəmiyyətli proqramdır. Ölkəmizi əcnəbi tələbələrə daha yaxından tanıtmaq, onların Azərbaycan cəmiyyətinə inteqrasiyasını asanlaşdırmaq və ölkəmizlə başqa dövlətlərin mənəvi bağlarını daha da möhkəmlətmək üçün əcnəbilərin, o cümlədən ölkəmizdə təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan dilini öyrənməsinə imkan yaradılması üçün Azərbaycan dilinin elektron platformasının hazırlanmasının strateji yolları müəyyənləşdirilir.

Dünya azərbaycanlılarının ümumi ünsiyyət vasitəsi və Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilinin lokal tarixi və müasir nüfuzunun qorunub saxlanması milli-ictimai ehtiyac, mənəvi-mədəni borcumuzdur. Azərbaycan dili xalqın mədəniyyətinin, mənəvi zənginliklərinin bu gününü və keçmişini birləşdirən, onlar arasında əlaqə yaradan mənəvi bir sərvətdir. Bu sərvəti qorumaq dövlətçilikdə dil siyasətinin əsas konsepsiyasıdır və bu siyasət sistemli şəkildə uğurla həyata keçirilir.



*Sayalı Sadıqova,*
***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor***

# Tramp Konqresdə illik çıxış etdi

## ABŞ Prezidenti hədəflərini açıqladı

ABŞ Prezidenti Donald Tramp Konqresdə ölkədəki vəziyyətə dair illik müraciətlə çıxış edib. Qeyd edək ki, Birləşmiş Ştatlar prezidentlərinin ölkədəki vəziyyətlə bağlı Konqresdə etdikləri ənənəvi çıxış "State of the Union" (İttifaqın Vəziyyəti) adlanır. Bu çıxış ABŞ siyasi sistemində mühüm konstitusion ənənədir və hər il keçirilir. Çıxışın hüquqi öhdəliyi isə ABŞ Konstitusiyasından gəlir - bu ənənə Konstitusiyanın II maddəsinin 3-cü bölməsinə əsaslanır. Ənənə ilk dəfə Corc Vaşinqton tərəfindən 1790-cı ildə başladılıb. 1934-cü ildən etibarən çıxış rəsmi olaraq "State of the Union" adlandırılır. Çıxışlar ABŞ Konqresinin Nümayəndələr Palatasında edilir. Tədbirdə Senat və Nümayəndələr Palatasının üzvləri, Ali Məhkəmə hakimləri, Nazirlər Kabinetinin əməkdaşları, Diplomatik korpus nümayəndələri və xüsusi dəvət edilmiş qonaqlar iştirak edirlər. Çıxışın məqsədi ölkənin iqtisadi vəziyyəti, daxili və xarici siyasət, sosial problemlər, təhlükəsizlik məsələləri, gələcək qanunvericilik təşəbbüsləri barədə hesabatlar və prioritetlərdir.

### İran hələ də söz vermir...

Qeyd edək ki, çıxışın daha çox xarici siyasət hissəsi maraqla gözlənilirdi - xüsusilə, müraciətdən əvvəl "Reuters" və CNN-in İranla bağlı mövqenin acıqlanacağını, Tehrana qarşı hərbi əməliyyat ehtimalını effektiv şəkildə əsaslandırılacağını yazması bu diqqəti daha da artırırdı. Amma bu baş vermədi - Tramp heç bir hücum elanı etmədi, lakin çıxışının əhəmiyyətli bir hissəsi İran məsələsinə həsr olundu. Tramp İran hakimiyyətini onilliklər boyu davam edən təcavüzdə günahlandırdı. "47 il əvvəl hakimiyyətə gələndən bəri Tehran və onun etibar etdiyi qüvvələr terror, ölüm və nifrətdən başqa bir şey gətirməyiblər", -deyən ABŞ Prezidenti minlərlə Amerika əsgərinin terrora qurban getdiyini bildirib. O, həmçinin deyib ki, təkcə son aylarda İran hakimiyyəti ən azı 32 min etirazçını öldürüb, lakin ABŞ edamların bəzilərinin qarşısını alıb və Tehranı sərt qisasla hədələyib. Tramp xəbərdarlıq edib ki, İran artıq Avropa və Amerika bazalarını təhdid edə bilən raketlər hazırlayıb və tezliklə ABŞ daxilindəki hədəfləri vurmaq üçün istifadə edilə biləcək sistemlər üzərində işləyir. O xatırladıb ki, iyun hücumlarından sonra Tehrana nüvə proqramını bərpa etməklə bağlı cəhdlərin qəbuledilməz olduğu barədə xəbərdarlıq edilib. Lakin prezidentin sözlərinə görə, İran əvvəlki "pis ambisiyalarına" yenidən başlayıb və danışıqların yenilənməsinə baxmayaraq, ABŞ hələ də İran nümayəndələrindən "lazımi təminatı" eşitməyib: "Onlar demirlər ki, bizim heç vaxt nüvə silahımız olmayacaq. Mən bu problemi diplomatiya yolu ilə həll etməyə üstünlük verirəm. Amma bir şey dəqiqdir: Mən heç vaxt dünyanın aparıcı terror sponsorunun nüvə silahına sahib olmasına icazə verməyəcəyəm və onlar, şübhəsiz ki, aparıcı sponsorlardır. Biz buna yol verə bilmərik".

Amerika lideri çıxışında son bir ildə həyata keçirilən sülhməramlı nailiyyətlərdən də danışıb. O, prezidentliyinin ikinci müddətinin cəmi on ayında səkkiz hərbi münaqişəyə son qoyduğunu söyləyib. "Pakistan və Hindistan arasında az qala nüvə müharibəsi başlayacaqdı... Pakistanın baş naziri mənim müdaxiləm olmasaydı, öləcəkdi", - deyə o bildirib.

### Narkoticarətə "yox"...

Tramp çıxışında Qərb yarımkürəsində baş verənlər haqda da danışıb. O, narkotik kartellərinə qarşı mübarizəyə xüsusi diqqət yetirdiyini deyib. "Meksikanın böyük hissəsi daxil olmaqla, bölgəmizdəki geniş ərazilər qəddar narkotik kartelləri tərəfindən idarə olunur", - deyə o bildirib. "Buna görə də mən bu kartelləri xarici terror təşkilatları, qanunsuz fentanili isə kütləvi qırğın silahı kimi təyin etmişəm".

Tramp, həmçinin narkotik qaçaqmalçılığına qarşı mübarizədəki son uğurlarını da sadalayıb. "Biz ən pis kartel liderlərindən birini məhv etdik", - deyən Tramp fevralın 22-də Halisco Yeni Nəsil (CJNG) kartelinin rəhbəri Nemesio Oseguera Servantesin (El Menço kimi tanınır) qətlindən bəhs açıb. Əməliyyat Amerika kəşfiyyatının köməyi ilə Meksika xüsusi təyinatlıları tərəfindən həyata keçirilib. Atışmada dörd yaraqlı öldürülüb, Servantes özü isə ağır yaralanıb və Mexiko şəhərinə aparılarkən ölüb.

Tramp, həmçinin ötən payız Venesuela sahillərində kartel qayıqlarına endirilən hədəfli zərbələri xatırladıb. "Yeni hərbi kampaniyamız sayəsində ölkəyə rekord miqdarda narkotik maddənin daxil olmasının qarşısını aldıq və onların su yolu ilə daşınmasını demək olar ki, tamamilə dayandırdıq", - deyə Tramp bildirib.



### Rusiya - Ukrayna müharibəsi...

Donald Tramp 2 saatlıq çıxışı zamanı Rusiya-Ukrayna müharibəsinə bir dəfə toxunub. Bildirib ki, "Rusiya ilə Ukrayna arasında baş verən qətllərə son qoymaq üçün çox çalışırıq". Tramp əlavə edib ki, əgər o, prezident olsaydı, müharibə heç vaxt baş verməzdi.

Çıxışın mühüm bir hissəsi yanvar ayında Venesuela prezidenti Maduronu həbs etmək əməliyyatına həsr olunub. Tramp bunu dünya tarixində ən təsirli əməliyyatlardan biri adlandırıb. O bildirib ki, Maduronun devrilməsi Venesuela üçün yeni bir dövr açıb - ölkənin yeni prezidenti Delsi Rodrigez ilə artıq öz bəhrəsini verən sıx əməkdaşlıqdan danışıb: "Biz yeni dostumuz və tərəfdaşımız Venesueladan 80 milyon bareldən çox neft aldıq".

### Tarif siyasəti ilə bağlı...

Çıxışın mühüm mövzularından biri ölkənin iqtisadi dirçəlişinin əsas səbəbi kimi göstərilən tarif siyasəti olub. Prezident bəyan edib ki, dünyanın iqtisadi reytinqlərində ABŞ-ın göstəriciləri daha da yaxşılaşıb - və bütün bunlar tariflərin sayəsindədir. Tramp deyib ki, tətbiq etdiyi tariflər xəzinəyə yüz milyardlarla dollar gətirib və həm iqtisadiyyat, həm də milli təhlükəsizlik baxımından gəlirli sövdələşmələr bağlamağa imkan verib. "Onilliklərdir bizi soyan ölkələr indi bizə yüz milyardlarla pul ödəyir. Və onlar xoşbəxtdirlər. Onlar əvvəlki qədər çox pul qazanmırlar, amma biz çox pul qazanırıq."

Qeyd edək ki, Trampın çıxışından dörd gün əvvəl, fevralın 20-də ABŞ Ali Məhkəməsi tarif siyasəti ilə bağlı qərar verib. Qərarda əksər ölkələrə qarşı "qarşılıqlı" tariflər, Çin, Kanada və Meksikadan gələn mallara (fentanilə qarşı mübarizə ilə əsaslandırılmış) tariflər və Rusiya neftinin alınmasına görə Hindistana qarşı "ikinci dərəcəli" tariflər yer alıb. Məhkəmə prezidentin bu tarifləri tətbiq etmək üçün 1977-ci il tarixli Beynəlxalq Fövqəladə İqtisadi Səlahiyyətlər Qanununa (IEEPA) istinad edərək səlahiyyətlərini aşdığına düşünür. Tramp qərarı "uğursuz" adlandırıb - onun sözlərinə görə, əksər ölkələr və korporasiyalar yeni şərtlərin onlar üçün daha pis ola biləcəyini başa düşərək mövcud müqavilələri qorumaq istəyirlər. Prezident tariflərin qüvvədə qalacağına, lakin bir az daha mürəkkəb, lakin bəlkə də daha yaxşı olan fərqli, tam təsdiqlənmiş və sınaqdan keçirilmiş hüquqi mexanizmlərə əsaslanacağına əminlik verib. Nəticədə, o, əvvəlkindən daha güclü bir həll yolu tapılacağına və Konqresin müdaxiləsinə ehtiyac qalmayacağına inandığını ifadə edib. Konqresdəki çıxışında Tramp, həmçinin qeyd edib ki, tariflər təhlükəsi ona dünyada hərbi münaqişələrin həllində kömək edib və gələcəkdə tariflərin əsasən gəlir vergisi sistemini əvəz edəcəyinə ümidvar olduğunu bildirib.

Konqresdəki çıxışında Tramp prezidentliyinin ilk ilini ümumiləşdirərək onu "bütün zamanlar üçün dönüş nöqtəsi" adlandırıb. ABŞ liderinin sözlərinə görə, o hakimiyyətə gəldiyi zaman ölkə dərin böhran içində idi, lakin bu gün, 250 illik yubileyinin astanasında Amerika "qızıl dövrə" qədəm qoyur. Prezident fikrini sübut etmək üçün statistikaya istinad edib: inflyasiya beş illik minimuma düşüb, şəxsi gəlirlər artır, fond bazarı yeni rekord həddə çataraq 53 dəfə artıb, neft hasilatı gündə 600 min barel artıb. İpoteka faizləri də dörd illik minimuma düşüb və bu da tipik borcalanlara ildə təx-

### İqtisadi vəziyyət düzəlib...

minən 5000 dollar qənaət etməyə imkan verib.

Prezident, həmçinin təhlükəsizlik və immiqrasiya məsələlərinə də toxunub. O, son doqquz ay ərzində ABŞ-a bir dənə də olsun qanunsuz immiqrantın daxil olmadığını və sərhəddən fentanil axınının 56 faiz azaldığını bildirib. Trampın sözlərinə görə, qətl nisbəti rekord səviyyədə azalaraq 125 illik minimuma çatıb. "Bu gün sərhədimiz təhlükəsizdir... Ruhumuz bərpa olunub. İnflyasiya kəskin şəkildə aşağı düşür. Gəlirlər sürətlə artır. İqtisadiyyat inkişaf edir. Düşmənlərimiz qorxur. Ordumuz və polisimiz güclənir. Amerikaya yenidən hörmət edilir - bəlkə də əvvəllər heç olmamış kimi", - deyə Tramp fikrini yekunlaşdırıb.

### Korrupsiyaya qarşı mübarizə, pensiya islahatı...

Prezident gələcək layihələrdən və planlardan da danışıb. O pensiya islahatının aparılacağını deyib. Başqa bir təşəbbüs süni intellektin sürətli inkişafı ilə bağlı olub - Tramp amerikalıların məlumat mərkəzlərinin artan enerji istehlakı səbəbindən potensial tarif artımlarından narahatlıqlarının yersiz olduğunu bildirib. O qeyd edib ki, böyük texnologiya şirkətləri fabriklərində öz elektrik stansiyalarını qurmağa məcbur olacaqlar. Bu, şirkətləri lazım olan enerji ilə təmin edəcək və ödənişlər azalacaq.

Prezident həmçinin qanunvericiləri Konqresdəki insayder ticarətinə son qoymağa çağırıb. "Əgər bütün amerikalıların böyüyən bazardan mənfəət əldə etmələrini təmin ediriksə, gəlin Konqres üzvlərinin daxili məlumatlardan korrupsiya yolu ilə mənfəət əldə edə bilməmələrinə əmin olaq", - deyən Tramp bu barədə qanunvericiliyin dərhal qəbul edilməsini tələb edib. Korrupsiyaya qarşı mübarizəyə də toxunan Tramp bunu "Amerikanın talan edilməsi" adlandırıb. O, ən kobud nümunə kimi Minnesota ştatını göstərib və deyib ki, müxtəlif hesablamalara görə, Somali icmasının üzvləri vergi ödəyicilərindən təxminən 19 milyard dollar məbləğində pulu mənimsəyiblər: "Kaliforniya, Massaçusets, Men və bir çox digər ştatlarda vəziyyət daha da pisdir." O, həmçinin vitse-prezident C.D. Vensin rəhbərliyi ilə "saxtakarlığa qarşı müharibə"nin başladığını elan etdi.

***P.İSMAYILOV***

# Pxenyanın yeni strategiyası

## Şimali Koreya dünya siyasətinə necə qayıdır?

Son illər beynəlxalq siyasətdə ən diqqətçəkən dəyişikliklərdən biri Koreya Xalq Demokratik Respublikasının (KXDR) davranış modelində müşahidə olunur. Uzun müddət qapalı və təcrid olunmuş dövlət kimi təqdim edilən Şimali Koreya artıq özünü regional deyil, qlobal proseslərin iştirakçısı kimi göstərməyə çalışır. Pxenyanda keçirilmiş növbəti partiya qurultayı ərəfəsində ölkənin siyasi kursunda baş verən dəyişikliklər bu transformasiyanın açıq göstəricisi hesab olunur.

**Beş ilin yekunu: nüvə statusundan geosiyasi alətə**

Koreya Əmək Partiyasının fevral ayında keçirilmiş növbəti IX qurultayı 2021-ci ildə baş tutmuş əvvəlki qurultaydan bəri KXDR-in beynəlxalq mövqeyinin ciddi şəkildə dəyişdiyini göstərdi. Ölkənin lideri, Əmək Partiyasının baş katibi və Dövlət İşləri Komissiyasının sədri Kim Çen In son çıxışlarında Şimali Koreyanın artıq "tam formalaşmış nüvə dövləti" olduğunu vurğulayır. 2022-25-ci illər ərzində Pxenyan müxtəlif tipli ballistik raketlərin onlarla sınağını həyata keçirdi, o cümlədən qitələrarası raketlər (ICBM) ABŞ ərazisinə çatmaq potensialı nümayiş etdirdi. Hərbi ekspertlərin hesablamalarına görə, Şimali Koreyanın arsenalında hazırda 30-50 arasında nüvə başlığı ola bilər. Bu faktor Pxenyana beynəlxalq danışıqlarda tamamilə yeni status qazandırıb - artıq o, güc balansının iştirakçısı kimi qəbul olunur.

**Ən radikal qərar: Koreyanın birləşməsi ideyasından imtina**

Şimali Koreyanın siyasətində ən mühüm ideoloji dönüşlərdən biri Koreya yarımadasının birləşdirilməsi konsepsiyasının faktiki olaraq gündəmdən çıxarılmasıdır. Kim Çen In açıq şəkildə bəyan edib ki, Cənubi Koreya artıq qardaş dövlət deyil, ayrı və düşmən siyasi sistemdir. Bu yanaşma əvvəlki liderlər - dövlətin qurucusu Kim İr Sen və onun varisi Kim Çen İr dövründən ciddi fərqlənir. Onlar birləşməni strateji məqsəd sayırdılar. Yeni doktrina isə Şimali Koreyanı müvəqqəti layihə kimi yox, müstəqil və daimi dövlət kimi təqdim edir. Cənubi Koreyada bu bəyanatlar ciddi narahatlıq yaradıb. Seul administrasiyası daxilində artıq birləşmə ideyasından imtina edib "sülh şəraitində yanaşı mövcudluq" modelinə keçid müzakirə olunur.



**Böyük güclər arasında balans: Rusiya və Çin faktoru**

Şimali Koreyanın xarici siyasətində də mühüm dəyişikliklər müşahidə olunur. 2024-25-ci illərdə Rusiya prezidenti Vladimir Putinlə Kim Çen In arasında keçirilən görüşlər iki ölkənin hərbi-texniki əməkdaşlığı genişləndirdiyini göstərdi. Pxenyan açıq şəkildə Moskvanın geosiyasi mövqelərini dəstəklədiyini bəyan etdi. Çin isə KXDR-in əsas iqtisadi tərəfdaşı kimi qalsa da, Pekində müəyyən narahatlıq hiss olunur. Çin rəhbərliyi, xüsusilə Çin Xalq Respublikasının sədri Si Cinpin Pxenyanın həddindən artıq müstəqil hərəkət etməsinin regionda balansı poza biləcəyindən ehtiyatlanır. Şimali Koreyanın nüvə potensialının sürətlə artması Pekin üçün də arzuolunan ssenari sayılmır.

**Varislik məsələsi: yeni siyasi simvol**

Son illərin diqqətçəkən hadisələrindən biri Kim Çen Inın qızı Kim Ju Aenin dövlət tədbirlərində görünməsidir. İlk dəfə 2022-ci ilin payızında ictimaiyyət qarşısına çıxan və hazırda təxminən 13 yaşında olduğu ehtimal edilən Kim Ju Ae artıq raket sınaqları və rəsmi səfərlərdə atasını müşayiət edir. 2025-ci ildə Çinə rəsmi səfər zamanı onun protokol sıralamasında yüksək mövqe tutması siyasi müşahidəçilər tərəfindən mümkün varislik siqnalı kimi qiymətləndirildi. Şimali Koreya mediasının onu "hörmətli qız" kimi təqdim etməsi isə ölkə daxilində yeni siyasi simvolun formalaşdırıldığını göstərir.

Pxenyanın güclənməsi regionda yeni təhlükəsizlik bloklaşmasına təkan verir. ABŞ, Yaponiya və Cənubi Koreya arasında üçtərəfli hərbi əməkdaşlıq genişlənir. Yaponiya müdafiə xərclərini artıraraq və raketdən müdafiə sistemlərini gücləndirərək Şimali Koreyanı əsas təhlükə mənbələrindən biri kimi göstərir. Nəticədə şimal-şərqi Asiya getdikcə iki geosiyasi xətt üzrə bölünür: bir tərəfdə ABŞ-Yaponiya-Cənubi Koreya əməkdaşlığı, digər tərəfdə Rusiya-Çin-KXDR arasında qeyri-formal yaxınlaşma.

**Yeni reallıq: kiçik dövlət, böyük təsir**

Ərazisi və iqtisadi göstəriciləri baxımından böyük dövlət sayılmasa da, Şimali Koreya bu gün regionda katalizator rolu oynayır. Onun hər bir raket sınağı və siyasi bəyanatı Asiya-Sakit okean regionunda təhlükəsizlik balansına birbaşa təsir edir. Analitiklərin fikrincə, rəsmi Pxenyan artıq yalnız sağ qalmaq uğrunda mübarizə aparan rejim deyil, dəyişən dünya nizamında öz yerini müəyyənləşdirməyə çalışan nüvə gücüdür. Bu səbəbdən Şimali Koreya məsələsi yaxın illərdə də beynəlxalq siyasətin ən mürəkkəb və təhlükəli mövzularından biri kimi qalacaq. Çünki Pxenyanın strategiyası sadədir - zəif görünməmək. Nüvə silahı olan dövlət üçün bu strategiya regionun gələcəyinə birbaşa təsir göstərir.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# Diplomatik təşəbbüslər artsa da, döyüşlər səngimir

## 4 il davam edən Rusiya-Ukrayna müharibəsində hər iki tərəf böyük itkilər verib

Rusiya-Ukrayna müharibəsinin başlamasından 4 il ötdü. Son zamanlar tərəflər arasında döyüşlər səngiməsə də, müharibənin dayandırılması üçün diplomatik təşəbbüslər artıb. ABŞ-ın vasitəçilik təşəbbüsləri fonunda BMT Baş Assambleyası "Ukraynada davamlı sülhün dəstəklənməsi" adlı qətnamə qəbul edib. Qətnamə Rusiya-Ukrayna müharibəsinin 4-cü ildönümü ilə əlaqədar iclasda qəbul olunub.

### BMT-də səsvermə: 107 ölkə lehinə, 12 ölkə əleyhinə

107 ölkə qətnamənin lehinə, 12 ölkə əleyhinə səs verib, 51 ölkə bitərəf qalıb. Bu barədə Ukraynanın xarici işlər naziri Andrey Sibiqa "X" sosial şəbəkəsində BMT Baş Assambleyasının Ukraynanın təşəbbüsü ilə "Ukraynada dayanıqlı sülhün dəstəklənməsi" qətnaməsinin qəbul edilməsini alqışladığını yazıb. Onun sözlərinə görə, həlledici məqamlarda beynəlxalq ictimaiyyət öz mövqeyində vahid və dəqiq olmalıdır: "Bu gün o, bunu sübut etdi. Bizim üçün bu, sadəcə növbəti səsvermə deyil. Bu, Ukraynanın tək olmadığının və BMT Nizamnaməsinin prinsiplərinin hələ də əhəmiyyət kəsb etdiyinin təsdiqidir". XİN başçısı qeyd edib ki, Ukrayna beynəlxalq hüquqa uyğun olaraq hərtərəfli, ədalətli və dayanıqlı sülhə nail olmaq üçün qətiyyətlə və ardıcıl hərəkət etmək niyyətindədir.

Bundan əlavə, BMT Təhlükəsizlik Şurasının iclasında da bu münaqişə müzakirə olunub. Müzakirələr zamanı Ukrayna xarici işlər nazirinin müavini Maryana Betsa Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya ilə onun milliyyəti ilə bağlı mübahisə edib. "Faktiki olaraq, mən ukraynalıyam və mənim çox qəribə soyadım var. Slavyanlar bilirlər: hətta Ukraynada belə tapmaq çətindir. O, Zaporojye kazaklarındandır. Atam əsl ukraynalıdır, anam da kazakdır. Səndən daha çox, xanım Betsa", - deyə Nebenzya bəyan edib.

Diplomat sərhədin hər iki tərəfində milyonlarla insanın yaşadığını qeyd edərək, onun üçün ruslarla ukraynalılar arasında heç bir fərq olmadığını vurğulayıb. O, 1941-ci ildə bir ukraynalı olaraq Leninqradı müdafiə etmək üçün cəbhəyə könüllü gedən atasının hekayəsini danışıb. Döyüşlərin davam etməsi ilə bağlı danışan V.Nebenzya bildirib ki, münaqişə dörd ildir davam edir və o, insan itkisindən məmnun deyil.

Buna cavab olaraq, Maryana Betsa deyib ki, Vasili Nebenzya "ukraynalı deyil". Eyni zamanda, o, rusların və ukraynalıların bir xalq olması fikrini qəti şəkildə rədd edib. Diplomatın sözlərinə görə, ruslar və ukraynalılar fərqli kimliklərə və tarixi təcrübələrə malik ayrı millətlərdir.

### G7-nin bəyanatında Kiyevə dəstək ifadə olunub

Yeri gəlmişkən, G7 ölkələrinin liderləri Rusiya-Ukrayna müharibəsinin dördüncü ildönümü ilə əlaqədar birgə bəyanat yayıblar. Bəyanatda liderlər Ukraynanın ərazi bütövlüyünü və mövcudluq hüququnu, eləcə də onun azadlığını, suverenliyini və müstəqilliyini müdafiə etmək istiqamətində sarsılmaz dəstəklərini bir daha təsdiqləyiblər. Bundan başqa, sülh prosesinin başlanması və tərəflərin birbaşa danışıqlara cəlb ilə bu məqsədlərə nail olmaq üçün ABŞ Prezidentinin səylərinə davamlı dəstək ifadə olunub. Bu prosesdə Avropanın digər tərəfdaşlarla birlikdə aparıcı rol oynamasının vacibliyi qeyd edilib. Eyni zamanda, Ukraynaya güclü və etibarlı təhlükəsizlik təminatlarının verilməsi məqsədilə "İstəklilər Koalisiyası" çərçivəsində götürülmüş öhdəliklərə də dəstək ifadə olunub. Ukrayna və Rusiyanın səmimi və vicdanlı danışıqlar aparmaqla sülh sazişinə nail ola biləcəkləri xüsusi vurğulanıb.

Bəyanatda, həmçinin G7 üzvləri və digər tərəfdaşlar tərəfindən Ukraynaya qış mövsümündə göstərilən əhəmiyyətli maliyyə və digər yardımlar alqışlanıb. Son həftələrdə əlavə elektrik enerjisi istehsal güclərinin səfərbər edildiyi, digər kritik avadanlıqların təmin olunduğu vurğulanıb, yanvardan etibarən G7 ölkələrindən Ukraynaya 2500-dən çox generator və transformatorlar, turbinlər və digər avadanlığın göndərildiyi bildirilib. Bundan əlavə, Ukraynanın Enerji Dəstək Fonduna 500 milyon avrodan çox yeni vəsaitin ayrılması öhdəliyinin götürüldüyü diqqətə çatdırılıb.

G7 ölkələrinin liderləri nüvə təhlükəsizliyinin təmin edilməsi istiqamətində sıx əməkdaşlıq etməyə sadiq olduqlarını vurğulayaraq, bu çərçivədə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Ukraynanın birlikdə Çernobıl qoruyucu örtüyünün mümkün olan ən qısa müddətdə bərpası üçün vəsaitin toplanmasının təşviqini, bütün qitə üçün ciddi humanitar və ekoloji nəticələrə səbəb ola biləcək hər hansı radioloji insidentin qarşısının alınmasını dəstəklədiklərini bildiriblər.



### Zelenski ABŞ-ın Rusiyaya güclü təzyiq etməsini istəyir

Bundan əlavə, bəyanatda ukraynalı uşaqların ailələrinə və icmaların dərhal, təhlükəsiz və qeyd-şərtsiz qaytarılmasını təmin etməyə yönəlmiş təşəbbüslərin dəstəkləndiyi, Ukraynalı Uşaqların Qayıdışı üzrə Beynəlxalq Koalisiyanın fəaliyyətinin yüksək qiymətləndirildiyi qeyd olunub, Ukrayna əhalisinə humanitar yardımın və dəstəyin davam etdiriləcəyi vurğulanıb.

Hazırda ABŞ müharibəyə tezliklə son qoyulması üçün təşəbbüslər göstərsə də, bu təşəbbüslər Kiyevi tam qane etmir. Prezident Volodimir Zelenski hesab edir ki, ABŞ Prezidenti Donald Tramp Ukraynadakı müharibəyə son qoymaq üçün Rusiyaya kifayət qədər təzyiq göstərmir. O, CNN-ə müsahibəsində deyib ki, Vaşinqtonun müharibəyə son qoymaq üçün Rusiyaya təzyiqi artırmasının vaxtıdır. Trampın Rusiya Prezidenti Vladimir Putinə kifayət qədər təzyiq göstərdiyinə inanması sualına Ukrayna Prezidenti "xeyr" cavabını verib.

Ukrayna lideri amerikalılar haqqında deyib: "Mən onların bizim tərəfimizdə qalmasını istəyirəm". O, ABŞ-ın münaqişənin həlli üçün çox böyük və vacib güc olduğunu bəyan edib.

**N.BAYRAMLI**

# "Könüllülər koalisiyası" Kiyevdə toplandı

## Maddi dəstək davam edəcək - Aİ danışıqlarda iştirak etmək istəyir

Fevralın 24-də Kiyevdə Rusiya-Ukrayna müharibəsinin dördüncü ildönümünə həsr olunmuş "könüllülər koalisiyası"nın iclası keçirilib. Avropa Komissiyasının sədri Ursula Fon der Leyen, Avropa Şurasının sədri Antonio Kostanın, eləcə də Danimarka, Estoniya, Finlandiya, İslandiya, Latviya, Litva, Xorvatiya, Norveç və İsveç liderlərinin iştirak etdiyi tədbirə Fransa prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer və Almaniya kansleri Fridrix Merts videokonfrans vasitəsilə qoşulublar.

**26 ölkənin birgə əməkdaşlığı...**

Xatırladaq ki, "Könüllülər Koalisiyası" atəşkəs vəziyyətində Ukrayna üçün təhlükəsizlik zəmanətləri hazırlayan 30-dan çox əsasən Avropa ölkələrinin ittifaqıdır. Fransa prezidenti Makronun və Böyük Britaniya Baş naziri Starmer tərəfindən 2024-cü ilin sonunda irəli sürülən format 26 ölkənin Ukraynaya qoşun göndərməyə və ya bu missiyanı dəstəkləmək, ölkənin dənizdə və havada təhlükəsizliyini təmin etmək üçün resurslar təmin etməyə hazır olduqlarını bildiriblər. Parisdə keçirilən "könüllülər koalisiyası"nın yanvar görüşündən sonra Makron, Starmer və Zelenski münaqişə bitdikdən sonra Ukraynaya sözdə çoxmillətli qüvvələr yerləşdirmək niyyət bəyannaməsini imzalayıblar. Sənəddə respublikada xarici qüvvələrin mümkün mövcudluğu parametrləri (hərbi bazaların yaradılması, ölkənin hava və dəniz məkanının qorunması və çoxmillətli kontingentlə Ukrayna Silahlı Qüvvələri arasında qarşılıqlı əlaqə sistemi daxil olmaqla) göstərilib.

**Yaxın 10 gündə növbəti görüş baş tuta bilər...**

Koalisiya iclasını açan Ukrayna prezidenti Volodimir Zelenski tərəfdaşlarına təşəkkür edib və bildirib ki, Ukraynanın bu müharibədə ayaq üstə duruş gətirməsinin səbəbi dostların dəstəyi və qələbəyə inamlarıdır. Zelenski deyib ki, bir neçə gün əvvəl Ukrayna "Patriot" sistemləri də daxil olmaqla, daha bir partiya hava hücumundan müdafiə raketləri alıb. "Lakin bu, kifayət deyil, çünki təcavüzkar ölkə hər gün dinc Ukrayna şəhərlərinə və infrastrukturuna zərbələr endirir", - deyə Zelenski vurğulayıb. O deyib ki, tərəfdaşlar, həmçinin Rusiyaya qarşı yeni sanksiyalarla təzyiq göstərə bilərlər və Macarıstan tərəfindən bloklanan 20-ci paket qəbul edilməlidir.

Sülh danışıqlarına gəldikdə, Zelenski ABŞ-Ukrayna-Rusiya görüşünün yaxın 10 gün ərzində keçiriləbiləcəyini söyləyib. O, Ukraynanın Avropa tərəfdaşlarının bu görüşlərdə iştirak etməli olduğunu vurğulayıb. "Danışıqlarda Avropaya ehtiyacımız var. Avropalıları bu prosesə mümkün qədər yaxından cəlb etmək üçün əlimizdən gələni edirik. Və bu danışıqlar prosesində onların liderliyinə güvənirik. Düşünürəm ki, bu həftə, bəlkə də on gün ərzində üçtərəfli görüş keçirəcəyik. Bizə sülh lazımdır, amma Rusiyanın digər çağırışlarına hazırlaşmalıyıq", - deyə Ukrayna prezidenti vurğulayıb.

**Ukrayna "Drujba"nı açsa, 90 milyard avro "qazanacaq"...**

Qeyd edək ki, tədbiröncəsi planlar müəyyənləşdirilən məcrada inkişaf etməmişdi. Belə ki, tədbirdən bir gün öncə Macarıstan Ukraynaya dəstək üçün ayrılması nəzərdə tutulan 90 milyard avroluq krediti bloklamışdı. Bundan başqa, Aİ-nin Rusiyaya qarşı daha geniş strateji çəkindirməli özündə əks etdirən 20-ci sanksiyalar paketi qəbul edilməmişdi. Bu mənada, Avropa liderlərinin Kiyevə səfəri dəstək xarakteri daşıyırdı. Qeyd edək ki, tədbir baş tutan gün Macarıstanın Baş naziri Viktor Orban sosial mediada Ukrayna lideri Volodimir Zelenskiyə müraciət edib. "Macarıstan lap əvvəldən sülhə sadiq olub. Və buna baxmayaraq, bu gün, bu ildönümündə Prezident Zelenski Macarıstanı təhdid edir və təzyiq göstərir, çünki biz müharibəyə cəlb olunmaqdan, Ukraynaya pul göndərməkdən və Rusiya enerjisinə çıxışdan imtina etməkdən imtina edirik", - deyə Orban yazıb.

Xatırladaq ki, Macarıstanın Ukraynaya yönəlik krediti bloklamasının səbəbi Kiyevin Rusiya neftinin Macarıstana ixracını təmin edən "Drujba" boru kəməri ilə nəqlin dayandırılmasından qaynaqlanıb. Yanvarın 27-də Ukrayna Rusiya neftinin Drujba boru kəməri vasitəsilə Macarıstana axınının dayandırıldığı elan edib. Həmin gün Ukraynanın "Naftoqaz" şirkəti Lvov bölgəsindəki vacib infrastruktur obyektində yanğın baş verdiyini bildirib. Macarıstanın xarici işlər naziri Peter Siyarto bildirib ki, Kiyev neftin "Drujba" boru kəməri vasitəsilə tranzitinə mane olana qədər blok qüvvədə qalacaq.

Kiyevdə keçirilən görüşdə bu məsələ də gündəmə gətirilib. Avropa Şurasının prezidenti Antonio Kosta və Ukrayna dövlət başçısı Zelenski "Drujba" boru kəmərinin təmiri üçün tələb olunan vaxtın yaxın günlərdə müəyyənləşdiriləcəyi barədə razılığa gəliblər.

**60 milyard avro hərbi ehtiyaclara xərclənəcək**

Dəstək kreditinin blokalanmasına baxmayaraq fevralın 24-də Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamentinin verdiyi birgə bəyanatda blokun Ukraynaya hərtərəfli dəstək göstərməyə davam edəcəyi və tezliklə vəd edilmiş kreditin bir hissəsinin Kiyevə ödənəcəyi bildirilib. "2022-ci ildən başlayaraq verilən təxminən 200 milyard avroluq yardıma əlavə olaraq, Avropa liderləri Ukraynanın təcili büdcə və müdafiə ehtiyaclarını ödəməsinə, Rusiyanın hücumları qarşısında güclü qalmasına kömək etmək üçün 2026-2027-ci illərdə 90 milyard avro ayırmaq barədə razılığa gəliblər. Bu yardım paketinin 60 milyard avrosu hərbi ehtiyaclara (Porcupine proqramı) xərclənəcək. İlk ödəniş mümkün qədər tez həyata keçiriləcək", - deyə bəyanatda qeyd olunur.

Qeyd edək ki, "Porcupine" proqramı blokun Ukraynanı da daxil etmək niyyətində olduğu bir sıra Aİ müdafiə təşəbbüslərinə aiddir. Layihə Ursula Fon der Leyenin 2025-ci ilin avqust ayında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşündə açıqlanıb. O dövrdə Avropa Komissiyasının rəhbəri bildirmişdi ki, Aİ hərbi yardım göstərməyə davam etməklə və dron istehsalını genişləndirməklə Ukraynanı güclü müdafiə sisteminə və inkişaf etmiş hərbi sənayeyə malik bir ölkəyə - "polad kirpiyə" çevirmək niyyətindədir.




**Təhlükəsizlik zəmanətləri üzərində iş yekunlaşır...**

Kiyevdə keçirilən "Könüllülər koalisiyası"nın görüşündə çıxış edən Fransa prezidenti Makron qısamüddətli sülhün perspektivlərinə şübhə ilə yanaşdığını bildirib. Səbəb kimi isə Rusiya tərəfinin sülh yolu ilə həll istəmədiyini önə çəkib. Fransa dövlət başçısı vəd edilmiş kreditin təcili şəkildə verilməsi və Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi də daxil olmaqla, Ukraynaya dəstəyin artırılmasına çağırış edib. "Koalisiyanın" üzərində işlədiyi təhlükəsizlik zəmanətlərinə gəldikdə isə, Makron qeyd edib ki, onlar son mərhələdədirlər. O, həmçinin digər koalisiya üzvlərinə bütün detalları müəyyən bir müddət ərzində razılaşdırmaq üçün hər hansı bir qeyd-şərt qoymamağı xahiş edib.

**Britaniyadan 200 milyon funt-sterlinq...**

Kiyev toplantısı öncəsi Böyük Britaniya Müdafiə Nazirliyi Londonda Ukrayna üçün 70 nəfərlik çoxmillətli qüvvələr qərargahının hazırlıq işlərinə başlandığını elan edən bəyanat yayıb. Nazirlik qeyd edib ki, "Britaniya qoşunlarının yerləşdirilməsi üçün hazırlıqlar hökumətin 200 milyon funt-sterlinq (269,7 milyon dollar) maliyyəsi ilə dəstəklənir". Bundan əlavə, Britaniya hökuməti Kiyev üçün yeni yardım paketi elan edib. Bunun bir hissəsi olaraq, London 20 milyon funt sterlinq (26,9 milyon dollar), eləcə də cəbhə bölgələrində humanitar dəstək üçün 5,7 milyon funt sterlinq (7,7 milyon dollar) ayırmağı planlaşdırır. Britaniya ukraynalı tibb işçiləri və pilotların təlimini davam etdirməyi də planlaşdırır. Qeyd edək ki, fevralın 12-də Ukrayna Əlaqə Qrupunun ("Ramşteyn" formatı) iclasında Böyük Britaniyanın müdafiə naziri Con Hili Kiyev üçün 540 milyon funt sterlinq dəyərində hərbi yardım paketinin ayrıldığını da elan etmişdi. O, məbləğin üçdə birinin Amerika tutucu raketlərinin alınması üçün ayrıldığını demişdi və qeyd etmişdi ki, bu, Londonun ABŞ administrasiyasının Ukraynaya hərbi təchizatı davam etdirməkdən imtina etməsindən sonra həyata keçirilən PURL (Prioritet Ehtiyaclar Siyahısı) mexanizminə - Kiyev üçün Avropada Amerika silahlarının tədarükü proqramına qoşulmasının göstərir. Ümumilikdə, təmas qrupunun üzvləri Kiyevə 35 milyard dollarlıq hərbi yardım göstəriblər və əlavə 3 milyard dollar ayırmaq barədə də razılığa gəliblər.

**Birgə bəyanat yayıldı...**

Kiyev görüşündən sonra "Könüllülər koalisiyası"nın həmsədrləri olan Makron və Starmer birgə bəyanat yayıblar. Bəyanatda ABŞ-ın dəstəyi ilə davam edən sülh danışıqları alqışlanıb. Bildirilib ki, bütün maraqlı tərəflər bu danışıqlarda iştirak etməlidirlər - çünki onların maraqları təhlükədədir. Bundan əlavə, Fransa və Britaniya liderləri Rusiyanı müzakirələrdə səmimi şəkildə iştirak etməyə və tam, qeyd-şərtsiz atəşkəsə razılaşmağa çağırıblar.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






## Ramazan ayı 8-ci günün duası

**Allahummərzuqni fihi rəhmətəl-əytami və it-amət- təami. Və ifşa əs-səlami və söhbətəl-kiram. Bitəvlikə ya məlcəəl-amilin.**

**Tərcüməsi:**

**İlahi, bu gün yetimlərə qarşı mehriban olmağı, ehtiyacı olanlara yemək verməyi, camaatla ucadan salamlaşmağı və kəramətli şəxslərlə dostluğu mənə nəsib et. Fəzl və bəxşişinə and verirəm, ey arzu edənlərin pənahı!**

# Sosial şəbəkələr: Ailə dağıdır, ya ünsiyyət yaradır?

Sosial şəbəkələr həyatımıza sürətlə daxil olub, gündəlik ritmimizi dəyişib. Bir vaxtlar axşam ailə söhbətlərinə ayrılan saatlar, ailə üzvləri ilə eyni masa arxasında toplaşıb səmimi ünsiyyət qurulan anlar indi telefon ekranlarının işığına qarışıb. Eyni masada oturan insanlar fərqli dünyalarda yaşayır, fiziki olaraq yan-yana, amma mənəvi olaraq bir-birilərindən kilometrlərlə uzaqdadırlar. Ünsiyyət zəifləyir, diqqət bölünür, emosional məsafə yaranır.

Sosial mediada hər şey parlaqdır, filtrdən keçib, ideal görünür. Başqa-

## Necə istifadə etməli?

sının gülümsəyən ailə fotosu, sürpriz hədiyyələr, romantik səyahətlər - bu kimi paylaşımlar sosial şəbəkələrdə çoxluq təşkil edir. Bəziləri fərqinə varmadan öz həyatını bu kadrlarla müqayisə etməyə başlayır. Həyat yoldaşı artıq real insan yox, sosial mediada gördüyü “ideal” obrazlarla müqayisə obyektinə çevrilir.

Psixoloqların fikrincə, bu vəziyyət ailədaxili münasibətlərdə gərginliyə, narazılıqlara və emosional uzaqlığa səbəb ola bilər. Münasibətlərdə baş verən kiçik narazılıqlar böyüyərək ciddi problemlərə çevrilir, narazılıq toxumları səpir. Çünki insanlar artıq bir-birlərini olduğu kimi deyil, “ideal” versiyalarına görə qiymətləndirirlər. Hətta psixoloqlar sosial şəbəkələrin ailələrin dağılmasına səbəb olduğunu da vurğulayırlar.

## Şüur altında ciddi travmalar yaranır

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən psixoloq Aytən Ələkbərova bildirib ki, digər ölkələrlə müqayisədə sosial şəbəkələrdən ən çox istifadə edən toplumuq. Onun sözlərinə görə, sosial şəbəkələr nəinki, gənclər, yeniyetmələr, ümumiyyətlə, bütün yaş kateqoriyası üçün xoşagəlməyən hallar yarada bilir: “Məlumdur ki, hazırki dövrdə insanlar informasiyanı daha çox sosial şəbəkələrdən alırlar. Sosial şəbəkələrdən həddindən artıq istifadə edən kütlə də var. Əslində, bu kütlə sosial şəbəkələrin bizi necə məhv etməsindən, lakin bundan xəbərsiz olduğumuzu hiss etmir. Bir var sadəcə, sosial şəbəkə istifadəçisi, bir də var aludəçisi olmaq. Bunların fərqi çoxdur, insanlar bunu analiz eləməlidir. Ümumiyyətlə, ailə üzvləri buna çox diqqət yetirməlidilər. Məsələn, ailə üzvünün birinin sosial şəbəkədən həddindən artıq asılılığı varsa, digəri ona zorla, psixoloji şiddətlə deyil, müəyyən korreksiya ilə müdaxilə etməlidir. Müdaxilə olmasa belə asılılıqlar əlbəttə ki, daha çox artır və bundan əlavə, onun verdiyi fəsadlar ümumiyyətlə, insanların şüur altında ciddi travmalar yaranır”.



## Balans saxlamaq vacibdir

A.Ələkbərova qeyd edib ki, sosial şəbəkələrin ən çox zərər verdiyi amil məhz ailədaxili münasibətlərdir: “Sosial şəbəkələr ailə münasibətlərində ciddi problemlər yaradır. Bu, bir həqiqətdir. İnsanlar çox vaxt ekran qarşısında vaxt keçirərək bir-biri ilə ünsiyyət imkanlarını məhdudlaşdırır, bu da emosional bağların zəifləməsinə səbəb olur. Həmçinin, müqayisə və rəqabət hissi, gizli və ya açıq konfliktlər, valideyn-uşaq münasibətlərində anlaşılmazlıqlar kimi halların artmasına gətirib çıxara bilər. Ən önəmlisi ailə üzvlərinin diqqətini və zamanını bir-birinə ayırması azalır, bu isə ailə harmoniyasını poza bilər. Sosial şəbəkələrdən istifadədə balans saxlamaq və real ünsiyyətə önəm vermək vacibdir”.

## Qabaqlayıcı tədbir görmək lazımdır

Psixoloq bildirib ki, ailə mövcuddursa, orada problem də ola bilər, narahatlıq da: “Bəzən ailədə tərəflərdən biri boşluğunu doldurmaq üçün sosial mediada vaxt keçirməyə başlayır, orada kiminləsə yazışır, söhbət edir. Biri var işgüzar söhbət, biri var mənəvi. Nəticədə emosional bağlılıq yaranır. İnsan özünü qarşı tərəfə borclu hesab edir, onun üçün yaxşı olmağa, onunla ünsiyyətdə olmağa çalışır, onsuz darıxır. Və bütün bunlar zaman keçdikcə ailədaxili münaqişələr, konfliktlər yaratmağa başlayır. Sosial şəbəkələr bu işdə insanları təhrik edir, ailə daxili münasibətlərin pozulmasına rəvac verən funksiyanın yerinə yetirir. İnsanlar, xüsusən də ailələr diqqətli olmalı, qabaqlayıcı tədbir görmək lazımdır. Söhbət ailədən gedirsə, mövcud problemin həlli yollarından biri sosial şəbəkələrin, mobil telefonların şifrəsi olur. Bu şifrəni həyat yoldaşlarının bilməsi vacibdir. Ən azından bu, tərəflər arasında məsuliyyət, güvən yaradacaq. Yox, əgər kiminsə xislətində xəyanət etmək varsa, o başqa adla sosial şəbəkədə qeydiyyatdan keçəcək və məqsədinə çatacaq. Ümumi problemdən danışırıqsa, ailədaxili münasibətlər şəffaf olmalıdır və tərəflərin bir-birinin qarşısında öhdəliyi olmalıdır”.

***Yeganə BAYRAMOVA***

# Ən ölümcül 10 virus




Bəzi viruslar milyonlarla insanı yoluxdurur, lakin ölüm halları nisbətən az olur. Digərləri isə daha məhdud miqyasda yayılır, amma yoluxanlar üçün xeyli yüksək ölüm riski yaradır.

AZƏRTAC xəbər verir ki, bu icmalda xəstələnənlər arasında ölənlərin payını göstərən letallıq göstəricisinə əsasən ən təhlükəli 10 virus təqdim olunur.

Siyahının mütləq “lideri” quduzluqdur: simptomlar meydana çıxdıqdan sonra ölüm ehtimalı 100 faizə yaxınlaşır.

Vizual material üçün məlumatlar müxtəlif mənbələrdən, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatından (ÜST), Britaniya Kolumbiyası Xəstəliklərə Nəzarət Mərkəzindən, Avstraliya hökumətindən, Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarəti Mərkəzindən və Böyük Britaniya hökumətindən toplanıb.

Quduzluq hər il əsasən Afrika və Cənub-Şərqi Asiya ölkələrində təxminən 59 min insanın həyatına son qoyur. Virus əsasən yoluxmuş heyvanların - daha çox itlərin tüpürcəyi vasitəsilə ötürülür. Effektiv peyvənd mövcud olsa da, quduzluq hələ də minlərlə ölüm halına səbəb olur. Bunun başlıca səbəbi təmasdan sonrakı profilaktik tədbir və vaxtında müalicə imkanının məhdud olmasıdır.

Siyahıya daxil olan bir neçə virus isə virus mənşəli hemorragik qızdırmalar törədir. Bunlara Ebola, Marburq və Konqo-Krım hemorragik qızdırması daxildir. Bu xəstəliklər çox vaxt ağır daxili qanaxmalar və orqanların fəaliyyətinin dayanması ilə müşayiət olunur.

Ebola və Marburq viruslarında letallıq səviyyəsi təxminən 50 faizə çatır. Xəstəliyin yayılması əsasən Mərkəzi və Saxara ətrafı Afrika ölkələrində qeydə alınır. 2014-2016-cı illərdə Qərbi Afrikada baş vermiş Ebola epidemiyası 11 mindən çox insanın həyatına son qoyub və epidemiyaya hazırlıq məsələlərini qlobal səviyyədə gündəmə gətirib.

Əsasən gənələr və kənd təsərrüfatı heyvanları vasitəsilə ötürülən Konqo-Krım hemorragik qızdırması Avrasiya və Afrikada daha geniş yayılıb. Letallıq səviyyəsi 10-40 faiz arasında dəyişən bu xəstəlik hər il 1-2 min nəfərin ölümünə səbəb olur.

Reytinqdə yer alan virusların əksəriyyəti zoonoz mənşəlidir. Meyvə ilə qidalanan yarasalar Nipah və Marburq viruslarının təbii rezervuarı hesab olunur, gəmiricilər Luxo virusunun daşıyıcılarıdırlar, birhürgüclü dəvələr isə 2012-ci ildə Səudiyyə Ərəbistanında ilk dəfə aşkarlanan MERS-CoV-un əsas mənbəyidir.

Quş qripi (H5N1) yoluxmuş quşlardan insana keçir. İnsanlarda təsdiqlənmiş yoluxma hallarında ölüm göstəricisi təxminən 50 faizdir. Bu, mövsümi qriplə müqayisədə xeyli yüksəkdir.

İnsanların bu virusa yoluxma halları nisbətən az qeydə alınsa da, yüksək ölüm faizi dünya səhiyyə qurumlarını daim gücləndirilmiş hazırlıq vəziyyətində saxlayır.



# Qeyri-adi qalaktika aşkarlanıb

Astronomlar demək olar ki, tamamilə qaranlıq maddədən ibarət olan qeyri-adi qalaktika aşkar ediblər. Bu struktur “Hubble Space Telescope” kosmik teleskopunun arxiv şəkillərinin təhlili zamanı müəyyən edilib. Bu barədə “Science” jurnalı məlumat yayıb.

CDG-2 adlandırılan obyekt çox zəif işıqlanan və çox az sayda ulduza malik qalaktikadır. Alimlərin hesablamalarına görə, onun ümumi kütləsinin 99,9 faizindən çoxu qaranlıq maddədən ibarətdir.

Müşahidələr Yerdən 240 milyon işıq ili məsafədə yerləşən Perseus qalaktikalar toplusu ərazisində aparılıb. “Euclid” Avropa kosmik teleskopunun məlumatlarının əlavə təhlili də zəif işıqlanmanı təsdiqləyib. Ehtimal edilir ki, bu işıqlanma qalaktika ulduzların formalaşması üçün lazım olan qazı itirməzdən əvvəl yaranmış az sayda ulduzla əlaqəlidir.

Məqalədə qeyd olunur ki, CDG-2-nin mövcudluğu təsdiqlənərsə, bu, Kainatda demək olar ki, ulduzlardan məhrum və əsasən qaranlıq maddədən ibarət qalaktikaların mövcudluğu ilə bağlı nəzəriyyəni gücləndirəcək.

Bundan əvvəl ABŞ-ın Qərbi Virciniya ştatında yerləşən “Green Bank Observatory” rəsədxanasının astronomları təsadüfən J0613+52 adlı tam qaranlıq qalaktika aşkar ediblər. Bu qalaktika toxunulmamış ilkin qazla doludur və görünən ulduzlara malik deyil. Alimlərin sözlərinə görə, J0613+52 Yerdən təxminən 270 milyon işıq ili uzaqlıqda yerləşir və indiyədək aşkar edilmiş ən zəif işıqlı qalaktika hesab oluna bilər.

*İdman*



# Azərbaycan çempionatlarının yüksək liqasında 250-ci avtoqol qeydə alınıb

Misli Premyer Liqasının XIV turundan təxirə salınan “Qəbələ” - “Turan Tovuz” matçı (0:3) avtoqolla əlamətdar olub.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadla xəbər verir ki, görüşdəki son qolu meydan sahiblərinin futbolçusu Seydina Keyta öz qapısına vurub.

Bu, Azərbaycan çempionatlarının yüksək liqasının tarixində 250-ci avtoqol olub. 1992-ci ildən keçirilən yarışda ilk avtoqol həmin il mayın 16-da qeydə alınıb. Kürdəmir “Şirvan”ının futbolçusu Vahid Mahmudov “Kürmük”lə səfər görüşündə (0:6) “fərqlənib”.

İndiyədək 44 komanda öz qapısına qol vurub. 40 komanda rəqib qoluna sevinib. Keyta avtoqol müəllifi olan 207-ci futbolçu olub.

Qeyd edək ki, 2022/2023-cü illər mövsümündə daha çox - 18 avtoqol olub. 1993/1994-cü illər mövsümündə belə qol qeydə alınmayıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4855**
**Sifariş: 268**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova